QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 178 (5650) **21 sentyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Türkiyə və Azərbaycan dostluğu tarixi köklərə söykənir

*“Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz və qardaşlığımız əbədidir”*



Səh 4

5

**Siyavuş Novruzov: “Paşinyanın ordudan xəbəri yoxdur”**



11

**Professor Oleq Kuznetsov: SSRİ DTK da daşnakları təhlükəli hesab edib**



16

**Ronaldo meydandan qovuldu, “Yuventus” qalib gəldi**



# "Azərbaycan beynəlxalq aləmdə fəal əməkdaşlıq həyata keçirir"

*Prezident İlham Əliyev bir sıra ölkələrin parlament rəhbərlərini qəbul edib*

**Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humədi, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Tseretelini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən tədbirin önəmini vurğuladı və bu tədbirdə iştirak etmək üçün ölkəmizə səfərə gələn qonaqlara təşəkkür etdi. Dost ölkələrin nümayəndələrinin bu tədbirdə təmsil olunmasını ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin nümayişi kimi dəyərləndirən Prezident İlham Əliyev onların təmsil etdikləri ölkələrə səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər çox yaxşı səviyyədədir və əlaqələrimiz müxtəlif sahələri əhatə edir. Prezident İlham Əliyev dedi ki, qonaqların ölkəmizə bu səfəri onların həm Azərbaycanla yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq, həm də parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcək.

Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanim Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarını dövlətimizin başçısına çatdırdı. O, tədbirdə şəxsən Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın tapşırığı ilə iştirak etdiyini dedi. Mərzuq Əli əl-Ğanim Bakıya birinci dəfə səfər etdiyini vurğulayaraq bildirdi ki, paytaxtımıza gəldiyi ilk andan şəhərdəki gözəllik və inkişaf onlarda böyük təəssürat yaradıb. O, əminliklə bildirdi ki, bu cür tədbirlər parlamentlərarası əməkdaşlığın daha da möhkəmləndirilməsi, eyni zamanda, digər ölkələrin və xalqların Azərbaycanla daha da yaxınlaşması işinə xidmət edir. Küveytli qonaq Prezident İlham Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırdı. O, ölkəmizə məmnunluqla yenidən səfər edəcəklərinə ümidvar olduqlarını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq aləmdə fəal əməkdaşlıq həyata keçirdiyini və ölkəmizin dostlarının sayının gündən-günə artdığını vurğuladı.

Dövlətimizin başçısı Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt dövlətinin başçısına çatdırmağı xahiş etdi. Sonda xatirə şəkli çəkdirildi.

# "Azərbaycan ilə NATO arasında uğurlu tərəfdaşlıq mövuddur"

*Prezident İlham Əliyev NATO baş katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, xanım Rouz Qotemöller NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.**



Görüşdə Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Azərbaycan Prezidenti İlham Əliyevin NATO mənzil-qərargahına səfərlərinə toxunuldu, dövlətimizin başçısının son səfərinin önəmi qeyd olundu. Bu ilin iyulunda NATO-nun Brüsseldə keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstəyin ifadə olunması yüksək qiymətləndirildi.

Söhbət zamanı Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi dəstək yüksək dəyərləndirildi, Əfqanıstana daşımalar sahəsində Azərbaycanın rolu xüsusi vurğulandı, ölkəmizin Əfqanıstandakı missiyalara nəqliyyat, logistik dəstəyindən danışıldı və eləcə də Azərbaycanın Əfqanıstan hökumətinə müxtəlif sahələrdə göstərdiyi yardımların əhəmiyyəti qeyd olundu və Azərbaycanın göstərdiyi bütün bu səylərə görə minnətdarlıq ifadə edildi. Görüşdə, həmçinin ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək dəyərləndirildi. Dövlətimizin başçısı NATO-nun baş katibi Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş etdi.

# “Azərbaycan NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verir”

## Birinci vitse-prezident Mehriban Əliyeva NATO baş katibinin müavininin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizin Alyansın müxtəlif tədbirlərində iştirak etdiyini bildirdi. Qeyd etdi ki, 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edir, 2018-ci ilin yanvar ayından Qətiyyətli Dəstək Missiyasında Azərbaycan hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb. Ölkəmiz, həmçinin Əfqanıstanın milli ordusuna maliyyə yardımı göstərir, logistika və nəqliyyat problemlərinin həllinə kömək edir, Əfqanıstan ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edir.



NATO ilə Azərbaycan arasında yüksək səviyyəli dialoqun uğurla inkişaf etdiyindən məmnunluğunu ifadə edən Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin iyulunda Brüsseldə NATO Zirvə toplantısında iştirakının və Alyansın baş katibi Yens Stoltenberqlə keçirilən görüşünün ölkəmizlə təşkilat arasında ikitərəfli əlaqələrin inkişafına xidmət etdiyini vurğuladı. Birinci vitse-prezident bildirdi ki, NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün birmənalı dəstəklənməsi ölkəmizdə yüksək dəyərləndirilir. Mehriban Əliyeva onu da vurğuladı ki, Azərbaycan NATO-nun gender məsələlərinə, qadınlar, sülh və təhlükəsizlik mövzusuna böyük diqqətini alqışlayır. “Çox xoşdur ki, bu mövzuya həsr olunan konfrans bu günlərdə Azərbaycanda keçirilib”, - deyən Birinci vitse-prezident ölkəmizdə gender bərabərliyinin dövlət siyasətinin prioritetlərindən biri olduğunu qeyd etdi. Bildirdi ki, hələ 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin atdığı addımlardan biri də qadınlara seçki hüququnun verilməsi idi. “Fəxr edirik ki, hələ XX əsrin əvvəllərində Azərbaycan qadınları bir sıra inkişaf etmiş ölkələrdən əvvəl bu bərabərliyə nail olublar”, - deyən Mehriban Əliyeva müstəqilliyimizi bərpa etdikdən sonra qadınların ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiklərini, parlamentdəki deputatların 17 faizini qadınların təşkil etdiyini diqqətə çatdırdı, bu göstəricinin gələcəkdə daha da artacağına ümidvar olduğunu bildirdi. Birinci vitse-prezident ordumuzda kişilərlə yanaşı 1600 qadının xidmət göstərdiyini, Azərbaycanda əsrlərboyu qadınlara böyük hörmətlə yanaşıldığını və bu gün də bu ənənənin davam etdiyini vurğuladı.



Azərbaycanın sülhsevər ölkə olduğunu, qonşuları və digər ölkələrlə qarşılıqlı hörmət əsasında əlaqələr qurduğunu xüsusi vurğulayan Mehriban Əliyeva buna baxmayaraq artıq 25 ildir ki, Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkdiyimizi, beynəlxalq səviyyədə ölkəmizin ərazisi kimi tanınan Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun bu siyasət nəticəsində işğal altında qaldığını, 1 milyondan çox insanın qaçqın və məcburi köçkün həyatı yaşadığını, münaqişə zamanı yüzlərlə azərbaycanlı qadının öldürüldüyünü, girov götürüldüyünü, Xocalı faciəsi zamanı 600-dən çox insanın, o cümlədən qadın və uşaqların vəhşicəsinə qətlə yetirildiyini diqqətə çatdırdı. Bildirdi ki, BMT Təhlükəsizlik Şurası 25 il əvvəl işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etsə də, bu işğalçılıq siyasəti hələ də davam edir. Münaqişənin ədalətli şəkildə, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin tərəfdarı olduğumuzu qeyd edən Mehriban Əliyeva vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, qaçqınlar öz doğma yurdlarına qayıtmalıdırlar və bundan sonra regionda sülh bərqərar olacaq. “Sülh, təhlükəsizlik xalqlar arasında qarşılıqlı anlaşmanı təmin edən amillərdir”, - deyən Birinci vitse-prezident NATO-nun humanitar fəaliyyətinin Azərbaycanda yüksək qiymətləndirildiyini, bu sahədə təşkilatla sıx əməkdaşlığa hazır olduğumuzu diqqətə çatdırdı.

“Əmin ola bilərsiniz ki, Sizin söylədiyiniz fikirləri biz özümüz üçün qeyd etdik”, - deyən NATO baş katibinin müavini Rouz Qotemöller Azərbaycana səfərlərindən məmnunluğunu ifadə etdi, Bakıda “Qadınlar, sülh və təhlükəsizlik” mövzusunda konfransın ölkəmiz üçün əlamətdar günlərdə - Azərbaycan parlamentinin 100 illiyi ərəfəsində keçirildiyini söylədi. Bakının gözəlliyindən danışan qonaq ölkəmizin əldə etdiyi nailiyyətlərdən məmnunluğunu bildirdi.

# İbrahim Əhməd Ömər: Sudan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir

***Sentyabrın 20-də Milli Məclisin sədri Oqtay Əsədov Sudan Respublikası Milli Assambleyasının sədri İbrahim Əhməd Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Sudanla Azərbaycanın dost ölkələr olduğunu deyib. O bildirib ki, Sudan Milli Assambleyası sədrinin ölkəmizə səfəri əlaqələrin, xüsusilə də parlamentlərarası münasibətlərin inkişafına təkan verəcək. O, Azərbaycan-Sudan iqtisadi əlaqələrinin inkişaf etdirilməsinin də vacibliyini vurğulayıb.***



Ötən illər ərzində hökumətlər arasında yaxşı əlaqələrin qurulduğunu deyən Oqtay Əsədov bu ilin aprel ayında Sudanın xarici işlər nazirinin ölkəmizə səfərini xatırladıb. Bildirilib ki, Sudan bütün beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləyir.

Milli Məclisin sədri Sudan Milli Assambleyasının xarici əlaqələr komitəsinin 1992-ci ilin fevralında Xocalı şəhərində mülki Azərbaycan əhalisinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş soyqırımını insanlığa qarşı cinayət kimi tanımasını xüsusi qeyd edib.

Sudan Respublikası Milli Assambleyasının sədri İbrahim Əhməd Ömər Azərbaycan parlamentinin yaranmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, qarşılıqlı səfərlər ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlara yol açır. Bu səfər əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcək. Milli Assambleyanın sədri deyib ki, Sudan hər zaman Azərbaycanın yanındadır. Sudanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləməsi bunun bariz nümunəsidir.

# Türkiyə və Azərbaycan dostluğu tarixi köklərə söykənir

*“Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz və qardaşlığımız əbədidir”*



***Sentyabrın 15-də paytaxtımızın Azadlıq meydanında Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş parad dost və qardaş ölkələr olan Türkiyə və Azərbaycan əlaqələrinin möhkəmliyini bir daha təsdiqlədi. Dünyanın gözü qarşısında keçirilən möhtəşəm tədbir bütün tarixi dövrlərdə iki dövlətin əlaqələrinin sarsılmazlığını göstərmiş oldu. Küçələrdə, binalarda, hərbi gəmilərdə, səmada Türkiyə və Azərbaycan bayraqlarının dalğalanması iki qardaş dövlətin birliyini bir daha bəyan etdi.***

Bir əsr bundan əvvəl, 1918-ci il sentyabrın 15-də tarixində baş verən Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram etdi. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı müasibəti ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri də qeyd etdiymiz dostluğun, əbədiliyin və sarsılmazlığın təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxışı zamanı “Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl, biz bir yerdə idik, bu gün də biz bir yerdəyik”, - deyərək bir əsr bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdiyini diqqətə çatdırıb.

Təbii ki, çox böyük strateji mövqeyə malik olan Bakıya o dövrdə olan maraq və diqqəti nəzərə alsaq, onun azad edilməsinin heç də asan olmadığını anlamaq olar. Tarixin çətin dövrünü yaşamış Azərbaycan zaman kəsiyində baş verən olayları salnamələrə köçürüb. Dövlət başçısı çıxışında bildirib: “Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində, Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır”.

Bu gün həmin hadisədən, bir əsr ötsə də, Azərbaycan tarixinin müəyyən bir hissəsi olan 15 sentyabrın tariximizdə müstəsna yeri var. 1918-ci ildə öz müstəqilliyini qazanan Azərbaycanı yenidən əsarətə salmaq istəyən qüvvələr yenə də ermənilərdən istifadə edirdilər. Lakin həmin qüvvələr Azərbaycan-Türkiyə birliyini və həmrəyliyini nəzərə almamışdılar. Türkiyə və Azərbaycanın qardaşlıq hissləri bütün maneələri dəf etməyə qadir oldu. Türkiyə və Azərbaycan hərbi əməkdaşlığı bolşevik-daşnak ittifaqının törətdiyi dəhşətli cinayətlərin qarşısını aldı. Azərbaycan dövlətçiliyi xilas edildi.

Qardaş Türkiyənin hərbi dəstəyilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününün yazılması deməkdir. Çünki Azərbaycanı Bakısız təsəvvür etmək olmazdı. Milli hökumətin Bakıya köçməsilə Şimali Azərbaycan bütövləşdi. Bakının xilası, onun milli şəhər simasının bərpa edilməsi Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfər idi. Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını unutmadı, onu qəlbində yaşatdı. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra, hər il sentyabrın 15-i tarixi gün kimi qeyd olunur. Bakıda Şəhidlər Xiyabanında türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önündə anma mərasimi keçirilir. Cənab İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da şəhidlərimizin məzarlarını ziyarət ediblər. “Onların məzarları yan-yanadır. Onlara Allahdan rəhmət dilədik, onların xatirəsi bizim qəlbimizdədir”, - deyən dövlət başçısı onların göstərdikləri qəhrəmanlığın bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirdiyini vurğulayıb.

### “BU GÜN TÜRKİYƏ-AZƏRBAYCAN ƏLAQƏLƏRİ ƏN YÜKSƏK ZİRVƏDƏDİR”

Əminliklə vurğulamalıyıq ki, Azərbaycan və türk əsgərlərinin Bakını düşmən işğalından azad edərək, tariximizə yazdıqları bu şərəfli gün həm Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərinin bariz bir nümunəsidir. Qeyd edək ki, Türkiyə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan, kifayət qədər çətin və mürəkkəb şəraitdə belə bir qərar qəbul edən ölkə olmuşdur. İki dost ölkə arasında strateji müttəfiqlik münasibətləri, ötən müddətdə, ən yüksək pilləyə yüksəlmiş, əbədi və dönməz xarakter almışdır. Cənab Prezident çıxışında “Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun” - deyərək, birliyimizin bütün sahələrdə özünü būruzə verdiyin diqqətə çatdırıb: “Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim altı görüşüm olmuşdur - ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz, müntəzəm olaraq, keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir”.

Bu gün ən nəhəng qaz və neft kəmərləri Azərbaycan-Türkiyə tranzit məkanı vasitəsilə dünyaya uzanmaqdadır, bunun hansı siyasi güc olması bütün dünya dövlətlərinə yaxşı məlumdur. Məhz bu amillər hər iki ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır və qarşılıqlı əməkdaşlığı nəzərdə tutan yeni-yeni layihələr dünya birliyində Azərbaycanın və Türkiyənin nüfuzunun, mövqeyinin güclənməsinə təkan verir. Bu gün hər iki ölkənin iqtisadiyyatı istər dövlət şirkətləri, istərsə də biznes qurumları üçün açıqdır.

Son illərdə ölkələr arasında dinamizmin möhkəmlənərək, keyfiyyətcə yeni mərhələyə qədəm qoyması qarşılıqlı əməkdaşlıq tellərinin genişlənməsinə impuls verib. Azərbaycanın dövlət başçısı Cənab İlham Əliyev iki qardaş ölkənin həmişə uğurla əməkdaşlıq etdiyini və qarşıda duran bütün çağırışlara, bütün vəzifələrə birgə münasibət göstərdiklərini bəyan edib: “Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulmuşdur. Birgə maliyyə resursları təşkil edilmişdir və bu nəhəng transmilli layihələr uğurla icra edilmişdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirilmişdir...Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən, hərbi sahədə bizim iş birliyimiz və əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər”.

Türkiyənin dünya miqyasında çox güclü ordusu olduğunu bildirən Cənab Prezident bu amili xüsusi dəyərləndirib. Bu uğurların yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olduğunu qeyd edib.

### “GÜN GƏLƏCƏK AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞI BU GÜN HƏLƏ DƏ İŞĞAL ALTINDA OLAN BÜTÜN TORPAQLARDA QALDIRILACAQDIR”.

Belə uğurlu dövrünü yaşayan Azərbaycanda ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edilib. Ərazisinin 20 faizi düşmən işğalında olan Azərbaycan, təbii ki, ordunun gücləndirilməsini hər zaman diqqətdə saxlayır. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bu gün iqtisadi gücə malik Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Dünyada ikili standartların hökm sürdüyü bir zamanda, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnir və bu iş lazımi səviyyədə həyata keçirməkdədir. Cənab İlham Əliyev çıxışında “Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır” - deyərək, Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha bildirib.

Paytaxt Bakı tarixi günü möhtəşəm şəkildə qeyd etdi. Ölkə Prezidenti İlham Əliyev bu günü Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günü kimi qiymətləndirdi: “Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz və qardaşlığımız əbədidir”.

Parada Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçməsi, Türkiyə Silahlı Qüvvələrinin məşhur “Mehtəran” birliyinin “Əsgər marşı”nı ifa etməsi, Türkiyə Silahlı Qüvvələrinin “Türk Ulduzları”nın uçuşları və s, bu birliyin daha bir təzahürüdür.

Azərbaycanın yüzlərlə hərbi texnikasının, uçuş vasitələrinin, zirehli texnikalarının, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad, bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib.

Paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikalar bizdə bir daha əminlik yaratmış oldu. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ORDUMUZ var.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbi fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük nüfuz qazanıb



Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbində yeni dərs ilinin başlanmasına həsr olunan təntənəli tədbir keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə çıxış edənlər məktəbin müəllim və kursant kollektivini, onların valideynlərini təbrik edərək ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən danışıblar. Böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması qeyd edilib.



DSX Xüsusi Məktəbinin yaradılmasında, formalaşdırılmasında və onun zəruri tədris bazası ilə təchiz olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun xidmətləri xüsusi olaraq vurğulanıb. Məktəbdə kursantların yaxşı təhsil almasının, fiziki və mənəvi cəhətdən sağlam böyüməsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzində olduğu xüsusi qeyd edilib.



Fəaliyyət göstərdiyi qısa müddət ərzində Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbi ölkəmizdə çox böyük nüfuz qazanıb. Məktəbdə təhsil almaq arzusunda olanların sayının qəbul planından dəfələrlə çox olmasını, məktəbə xüsusi marağı nəzərə alan Heydər Əliyev Fondunun dəstəyi ilə məktəbin yeni inşa edilmiş ən yüksək standartlara cavab verən tədris korpusunun cari il martın 5-də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilməsi kursantların sayının 3 dəfəyədək artırılması imkanını yaradıb. Məktəbdə yüksək ixtisaslı pedaqoji kollektivin yaradıldığı, təlim və tədrisin müasir tələblər səviyyəsində qurulması üçün qabaqcıl metodların bacarıqla tətbiq edildiyi, hər il məktəbi bitirən kursantların əksəriyyətinin uğurla imtahan verərək Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul olunduğu məmnunluq hissi ilə qeyd olunub.

Mərasimdə iştirak edən valideynlər Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbində yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib və övladlarını təbrik edərək onlara nəsihətlər veriblər. Tədbir kursantların təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

## Rouz Gotemoller: Azərbaycan terrorizmə qarşı mübarizədə qətiyyətli mövqe sərgiləyir



Azərbaycan terrorizmə qarşı mübarizədə qətiyyətli mövqe sərgiləyir və NATO-nun səylərini dəstəkləyir. NATO Azərbaycanın terrorizmlə mübarizədə rolunu yüksək qiymətləndirir. AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində NATO baş katibinin müavini xanım Rouz Gotemoller deyib.

Baş katibin müavini bu il iyulun 12-də Azərbaycan Prezidenti İlham Əliyevin NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirakının önəmini qeyd edib. Rouz Gotemoller Azərbaycanın NATO ilə sıx əməkdaşlığının olduğunu vurğulayıb. O əlavə edib ki, Azərbaycan NATO-nun Əfqanıstandakı sülhməramlı missiyasına töhfə verir. "Biz bir çox layihələr üzərində işləyirik və bu layihələr Azərbaycanın maraqlarına xidmət edir", - deyə o əlavə edib.

# Azərbaycan-Pakistan əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub



Sentyabrın 20-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncari ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri Novruz Məmmədov Məhəmməd Sadiq Səncarini Pakistan Senatının sədri seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Azərbaycan-Pakistan münasibətlərindən danışan Novruz Məmmədov ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin böyük tarixi köklərə malik olduğunu vurğulayaraq dedi: "Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz arasında əlaqələr həm ikitərəfli, həm də çoxtərəfli formatlarda inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına öz töhfəsini verəcək".

Baş nazir Azərbaycan-Pakistan münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin də mühüm rol oynadığını dedi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Novruz Məmmədov bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Pakistan tərəfinə minnətdarlığını ifadə etdi.

Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncari Novruz Məmmədovu Baş nazir təyin edilməsi və Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə təbrik etdi. O, Pakistanın Baş naziri İmran Xanın salamlarını Novruz Məmmədova çatdırdı. Pakistan ilə Azərbaycan arasında səmimi dostluq və qardaşlıq əlaqələrinin olduğunu vurğulayan Senatın sədri yüksək səviyyəli səfərlərin, görüşlərin bu münasibətlərin daha da inkişafına təkan verdiyini dedi. Məhəmməd Sadiq Səncari Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən dövr ərzində Pakistan Prezidentinin, Baş nazirinin, Senat sədrinin ölkəmizə bir neçə dəfə səfər etdiklərini xatırlatdı, həmin səfərlər zamanı keçirilən görüşlərin, aparılan müzakirələrin ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynadığını bildirdi. Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması, sərmayə qoyuluşu imkanları, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

## Siyavuş Novruzov: "Paşinyanın ordudan xəbəri yoxdur"



"Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm fikirlər səsləndirməsi əsl erməni xislətindən xəbər verir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib. YAP İcra katibinin müavinin sözlərinə görə, Paşinyanın oğlu hərbi xidmətə getdiyi zaman dəfələrlə Azərbaycan Prezidenti cənab İlham Əliyevə bununla bağlı suallar ünvanlansa da dövlət başçımız bu məsələyə münasibət bildirmədi: "Çünki əsl türk rəhbəri, başçısı başqasının ailəsinə, daxili işinə qarışmaz. Amma erməni xisləti, düşüncəsinə malik olan Paşinyan hər bir vəziyyətdən istifadə etməyə çalışır. Heç şübhəsiz ki, o burada da çox uğursuz bir məsələdən yararlanmağa çalışdı.

Bildiyiniz kimi, xüsusi təyinatlıların işi orduda və ümumiyyətlə, hüquq-mühafizə sistemində ən çətin işdir. Onun mütəmadi dislokasiya yeri yoxdur. Yəni xüsusi təyinatlıların işi bu gün terrorçuya, sabah isə sərhədlərin qorunmasına qarşı mübarizə ola bilər. Biz bunu 1990-cı illərdə də görüb şahidi olmuşuq. İstər ölkənin daxilində, sərhədlərində, hətta ölkənin xaricində də onlar əməliyyatlar həyata keçirirlər. Bütün bunlar göz önündədir. Bu baxımdan da ora psixoloji, fiziki, bir sözlə bütün cəhətdən hazırlıqlı insanları götürürlər. Hər bir şəxsi ora qəbul etmirlər. Çünki o xüsusi imtahan verməlidir. Paşinyanın isə ordudan xəbəri olmadığına görə sərsəm fikirlər səsləndirir".

## XİN: Cəbhə bölgəsində yaranmış gərginliyin bütün məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür



Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Nyu-Yorkda BMT Baş Assambleyası çərçivəsində nəzərdə tutulan görüşü ərəfəsində Ermənistan rəhbərliyi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə təxribatçı səfərin edilməsi və səfər zamanı aqressiv bəyanatların səsləndirilməsi Ermənistan tərəfinin qəsdən vəziyyəti gərginləşdirmək niyyətinin göstəricisidir. ATƏT-in Minsk qrupunun həmsədrlərini işğalçı Ermənistanı danışıqlar prosesinə xələl yetirən bu kimi təxribatçı addımlardan və bəyanatlardan çəkindirmək istiqamətində addımlar atmağa çağırırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb. Açıqlamada deyilir: "Ermənistan son günlər təmas xəttində, eləcə də Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşdirilməsi istiqamətində sistematik addımlar atır. Azərbaycan torpaqlarının işğalı, bu ərazilərdə törədilən çoxsaylı qanun pozuntuları və cəbhə bölgəsində yaranmış gərginliyin bütün məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür".

# Bu gün Azərbaycan gəncliyində vətənpərvərlik ruhu çox yüksəkdir

## *YAP Gənclər Birliyinin sədri Seymur Orucovun yap.org.az-a müsahibəsi*

***- Seymur müəllim, bu günlərdə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi Avropa Demokratik Gənclər Birliyinin (DEMYC) üzvü seçildi. Bu hadisənin əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası geniş beynəlxalq əlaqələrə malikdir. YAP Gənclər Birliyi də partiya rəhbərliyinin dəstəyi ilə bu istiqamətdəki fəaliyyətini daha da genişləndirməyə çalışır. Bir sıra ölkələrin siyasi partiyaları ilə ikitərəfli münasibətlərimiz mövcuddur. Eləcə də, beynəlxalq gənclər təşkilatları çərçivəsində də işimizi yüksək səviyyədə qurmağa çalışırıq. Bilirsiniz ki, YAP Gənclər Birliyi İCAPP-ın gənclər qolunun üzvüdür və bu qurumda sədr müavini səviyyəsində təmsil olunur. Biz həmçinin, Avropa Xalqları Partiyasının (EPP) gənclər təşkilatları ilə də əməkdaşlıq edirik.

DEMYC təşkilatına gəlincə, YAP Gənclər Birliyi bir neçə il idi ki, onun müşahidəçi statuslu üzvü idi. Bu təşkilat nəinki Avropada, bütün dünyada nüfuza sahib olan beynəlxalq gənclər təşkilatıdır və bütün qitələri özündə birləşdirir. Təşkilata tam hüquqlu üzv olmaq üçün xeyli vaxtdır iş aparılırdı və bu, öz nəticəsini verdi. DEMYC-in Bakıda keçirilən Mərkəzi Şura iclasında YAP Gənclər Birliyinin təşkilata üzv seçilməsi haqqında yekdilliklə qərar qəbul olundu.

Ümumilikdə, biz çalışdıq ki, qonaqların Bakı səfəri yüksək səviyyədə baş tutsun və belə də oldu. Bu məsələdə partiyanın İcra Katibliyi lazımi dəstək verdi. Həmin iclasın Bakıda keçirilməsi də böyük uğur idi. Çünki bir neçə ölkə də həmin iclasa ev sahibliyi etmək üçün müraciət etmişdi. Amma bu məsələdə seçim Bakı oldu. İclasda 40-a yaxın xarici qonaq iştirak edirdi. Onların arasında parlament üzvləri, nazir müavinləri də var idi. Qonaqlar səfərin təşkilindən razı qaldılar və Bakı şəhərini çox bəyəndilər. Hətta qurumun İtaliyadan olan baş katibi YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovla görüş zamanı bildirdi ki, Bakı çox gözəl, təmiz şəhərdir və İtaliyanın bələdiyyə rəhbərləri Azərbaycanın bu təcrübəsini öyrənməlidirlər.

Bütövlükdə, YAP Gənclər Birliyinin DEMYC təşkilatına üzv seçilməsi böyük uğurdur. Biz bu təşkilat vasitəsilə Azərbaycan həqiqətlərini dünyaya daha aktiv şəkildə çatdırmağa çalışacağıq. Azərbaycan Avropanın ayrılmaz hissəsinə çevrilib və ölkəmiz bütün dünyada etibarlı tərəfdaş kimi tanınır. DEMYC təşkilatının üzvü olan gənclər də gələcəkdə öz ölkələrində rəhbər vəzifələr tutmaq potensialına malik olan şəxslərdir. Ona görə də, biz bu təşkilata üzv olmaqla beynəlxalq aləmdə Azərbaycanın dostlarının artmasına çalışırıq. Biz DEMYC-in tam hüquqlu üzvü olduğumuz üçün qurum çərçivəsində yeni çağırışların təşəbbüskarı olmağa çalışacağıq.

Təbii ki, beynəlxalq əlaqələrimizi bundan sonra da genişləndirmək istəyirik. Yaxın vaxtlarda Rusiyanın hakim partiyasının gəncləri ilə görüşümüz olacaq. Eləcə də, Türkiyənin AK Partyasının gənclər qolları ilə yeni platformalar yaratmaq istəyirik. Bir sözlə, beynəlxalq əlaqələrimizi genişləndirmək əsas hədəflərimizdən biridir. Azərbaycan dünyada sabitliyin hökm sürdüyü və dinamik inkişaf edən, etibarlı tərəfdaş ölkə kimi tanınır. Təbii ki, ölkəmiz bu imici Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində qazanıb. Ona görə də, gənclər olaraq müxtəlif təşəbbüslərimizlə Azərbaycanın bu imicini hər zaman qorumağa çalışırıq.



***- Sentyabrın 15-də Bakı şəhərinin erməni-daşnak, bolşevik işğalından azad olunmasının 100 illiyinə həsr olunmuş hərbi parad keçirildi. Hərbi paradda Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi. Bu hadisəni Azərbaycan-Türkiyə münasibətləri kontekstində necə şərh edərdiniz?***

- Əlbəttə ki, sentyabrın 15-də Bakıda keçirilən hərbi parad öz möhtəşəmliyi ilə müasir tariximizə qızıl hərflərlə yazıldı. Bu hadisə, həm də Azərbaycan və Türkiyənin dostluq, qardaşlıq və həmrəylik nümunəsidir. Bu cür tarixi anlardan biri də 15 sentyabr 1918-ci ildə Azərbaycanın Milli Ordusunun Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-daşnak, eser-menşevik və bolşeviklərdən azad etməsidir. Xalqımız öz şanlı tarixinin qürur dolu və parlaq səhifələrindən biri olan Bakının erməni-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyini böyük ruh yüksəkliyi və qürur hissi ilə qeyd edir.

Azərbaycan xalqı onun istiqlalı uğrunda şəhid olmuş türk əsgərlərinin xatirəsinə ehtiramını layiqincə ifadə edir. Bu gün türk xalqlarının mədəni-mənəvi inteqrasiyasının daha da dərinləşdirilməsini, türk tarixinin obyektiv araşdırılmasını başlıca vəzifə elan etmiş müvafiq strukturlar türkün şanlı zəfər salnaməsinə parlaq səhifə kimi daxil olmuş həmin hadisələrin - Azərbaycan Milli Ordusu ilə Qafqaz İslam Ordusunun Azərbaycanda 100 il öncə apardığı uğurlu döyüşlərin tam təfsilatının öyrənilməsinə və təbliğinə, bu qəhrəmanlıq örnəyinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi üçün əyani vəsaitə çevrilməsinə xüsusi diqqət yetirilməkdədir. Beləliklə, tariximizin ən şanlı səhifələrindən olan bu möhtəşəm zəfər Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsi və təntənəsi, qürur və iftixar mənbəyidir.

Ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətləri uğurlu regional və beynəlxalq əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də dostluq və qardaşlıq örnəyi kimi xarakterizə edilir. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üzrə unikal bir nümunəyə çevrilib.

Qürurverici haldır ki, bu gün Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birini dəstəkləyir, dostluq, qardaşlıq nümunəsi ilə dünyaya örnək olurlar. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələr kimi çıxış edirlər. Başqa sözlə, dərin tarixi köklər, sarsılmaz dostluq Türkiyə-Azərbaycan qardaşlığının təməlini təşkil edir. Reallıq budur ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapmaq mümkün deyil.

***- Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında öz mövqeyini daha da gücləndirir...***

- Ölkəmizdə bütün sahələrin paralel inkişafı fonunda ordu quruculuğu sahəsində də sistemli və kompleks işlər aparılır. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müasir ordu quruculuğu siyasəti uğurla həyata keçirilir. Müharibə şəraitində yaşayan bir ölkə kimi Azərbaycanın güclü orduya, təkmilləşmiş hərbi sistemə, inkişaf etmiş müdafiə sənayesinə malik olması ölkənin təhlükəsizliyi baxımından böyük önəm kəsb edir.

Məlum olduğu kimi, milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Əminliklə söyləmək olar ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdır.

***- Seymur müəllim, Azərbaycan gəncliyinin səciyyəvi xüsusiyyətlərindən biri yüksək vətənpərvərlik ruhuna malik olmasıdır. Bu barədə nə deyə bilərsiniz?***

- Ordunun döyüş qabiliyyətini müəyyən edən mühüm faktorlardan olan vətənpərvərlik ruhu da Azərbaycan Silahlı Qüvvələrinin səciyyəvi keyfiyyətlərindəndir. Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri də orduda və vətəndaşlar arasında sağlam mənəvi-psixoloji durum, ruh yüksəkliyi, özünəinam, vətənpərvərlik hisslərinin hakim olmasıdır. Bu gün Azərbaycan cəmiyyətində belə əhval-ruhiyyə mövcuddur. Bunun nəticəsidir ki, xalqımız regionda aparıcı güc strukturuna çevrilmiş Azərbaycan Silahlı Qüvvələrinə vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğu siyasəti sayəsində bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, qeyd etdiyimiz kimi, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdəndir. Dövlət başçısının orduya qayğısı, hərbi hissələrə davamlı olaraq baş çəkməsi, cəbhə bölgəsində xidmət göstərən hərbçilərlə görüşməsi onlarda ruh yüksəkliyini daha da artırır.

Bu gün Azərbaycan gəncliyində vətənpərvərlik ruhu çox yüksəkdir. Sevindirici haldır ki, ölkəmizdə məhz bu ruhda gənc nəsil formalaşıb. Sağlam, intellektual, güclü vətənpərvərlik ruhuna malik gəncliyi olan ölkəmiz hər bir sahədə möhtəşəm nailiyyətlər qazanmağa qadirdir. Gün gələcək bu gənclik Ali Baş Komandanın əmri ilə qısa zamanda torpaqlarımızı erməni işğalından azad edəcək.

# İordaniyanın "Ər-Ray" dövlət qəzeti Qarabağ məsələsində Türkiyənin Azərbaycana dəstəyindən yazır

***İordaniyanın geniş oxucu kütləsinə malik rəsmi "Ər-Ray" dövlət qəzeti "Ərdoğan: Qarabağ probleminin həlli Ermənistanla əlaqələrin yaxşılaşmasının şərtidir" adlı geniş məqalə dərc edib.***


Diploprofil Azerbaïdjan - Un rôle pivot entre l'Orient et l'Occident

Des services publics innovants et modernes favorisant la coopération internationale

Azərbaycanın İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə 1918-ci ildə Nuru paşanın komandanlığı altında Azərbaycan Milli Ordusunun könüllülərlə birlikdə apardığı gərgin döyüşlərdən sonra Gəncə, Salyan, Ağsu, Kürdəmir və Şamaxı kimi strateji əhəmiyyətli ərazilərin və Bakı şəhərinin erməni-bolşevik işğalından azad edildiyi vurğulanır, 2018-ci il sentyabrın 15-də paytaxtımızın Azadlıq meydanında Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışına xüsusi yer verilir.

Məqalənin əvvəlində R.T.Ərdoğanın "Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir" fikrini diqqətə çatdıran müəllif Türkiyə Prezidentinin aşağıdakı sözlərini sitat gətirir: "Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir".

Prezident R.T.Ərdoğanın "Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur" fikrini oxucusuna təqdim edən müəllif 1992-ci il fevralın 26-da erməni ordu birləşmələri tərəfindən Xocalıda törədilmiş soyqırımı haqqında məlumat verir, bu qanlı cinayət nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 dinc müsəlman sakinin qətlə yetirildiyini, 487 nəfərin yaralandığını, 1275 nəfərin girov götürüldüyünü və 150 nəfərin itkin düşdüyünü vurğulayır. Qeyd edir ki, Dağlıq Qarabağ 1992-ci ildə Ermənistan tərəfindən işğal edilib və o vaxtdan həmin ərazilər separatçı qüvvələrin nəzarətindədir.

Məqalədə Prezident R.T.Ərdoğanın aşağıdakı sözləri də sitat kimi təqdim olunur: "Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. Ankara müstəqilliyinin ilk dövrlərindən başlayaraq qardaş Azərbaycana əlindən gələn hər cür dəstəyi göstərib və bu gün Türkiyə Azərbaycanın ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır.

Müəllif qeyd edir ki, Türkiyə Prezidenti 1918-ci il sentyabrın 15-də şəhid olduğu müharibənin, Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Azərbaycana köməyə gəlmələrinin əsla adi bir hadisə olmadığını vurğulayıb. Məqalədə Türkiyə Prezidentinin hazırda iki ölkə arasında mövcud olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP kimi nəhəng müştərək layihələrə toxunduğu qeyd edilir və "Türkiyə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Gələcəkdə bizi daha böyük vəzifələr gözləyir" fikri sitat kimi verilir.

# "Vladimir Putinin Azərbaycana səfəri mühüm əhəmiyyət daşıyır"

## *"Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən Rusiya üçün daha çox maraq kəsb edir"*

***Rusiya Prezidenti Vladimir Putinin sentyabrın 25-də Azərbaycana rəsmi səfəri planlaşdırılır. Ekspertlərin gəldiyi qənaətə görə, səfər çərçivəsində, iki ölkə arasında əlaqələrin inkişafı, Dağlıq Qarabağla bağlı məsələlər, regiondakı mövcud vəziyyət və digər aktual məsələlər müzakirə olunacaq. Söhbət etdiyimiz müsahiblərimiz Vladimir Putinin Bakıya səfərinin Ermənistanda ciddi təşviş yaratdığını bildirib.***

Politoloq Qabil Hüseynli: **"Vladimir Putinin bu məsələ ilə bağlı daha qətiyyətli addımlar atacağını gözləyirik"**



- Azərbaycan Prezidenti İlham Əliyev Soçiyə səfəri zamanı iqtisadi blok üzrə Rusiya ilə Azərbaycan arasında bir çox prinsipial məsələlər üzrə razılıq əldə edildi. Ondan əvvəl də Xəzərin statusu məsələsində hər iki tərəfin mövqelərinə uyğun gələn kompromislərə gəlməsində Azərbaycan kifayət qədər fəallıq göstərmişdi. Azərbaycanın Rusiyadan ATƏT-in Minsk Qrupunun həmsədri kimi gözləntisi var. Bu gözlənti Azərbaycanın işğal edilmiş ərazilərinin erməni işğalçı qoşunlarından azad edilməsi və Azərbaycanın ərazi bütünlüyünün təmin edilməsi məsələsidir. Soçidə bu məsələlər ayaqüstü müzakirə edilibdir. Yəni bütün nüanslarına toxunulmasa da, ümumi istiqamətdə məsələlər müzakirə edilib və həmin məsələlərin yenidən müzakirəsi gözlənilir. Çünki Soçi görüşündən sonra Ermənistanın baş naziri Paşinyanın da Rusiyaya səfəri oldu və yəqin ki, Vladimir Putin hər iki ölkənin siyasi rəhbərləri ilə fikir alış-verişində olub və müəyyən mövqe müəyyənləşdirməyi nəzərdə tutturdu. İndi isə Vladimir Putinin səfəri MDB-nin zirvə toplantısı ərəfəsində Bakıda görüşü olacaq və bu görüşdə Azərbaycan, yəqin ki, özünə aid bir çox məsələlərlə bağlı suallara cavab axtaracaqdır. Bu cavabda da, əsasən, Dağlıq Qarabağ probleminin həlli məsələsi öndə durur ki, bu məsələdə Azərbaycan Rusiyadan obyektiv və beynəlxalq hüququ normalarına uyğun mövqe sərgiləməyi gözləyir. Bütün Azərbaycan xalqı bu fikirdədir ki, nəhayət, bu problemin həlli vaxtı yetişibdir və Vladimir Putin Azərbaycan xalqının, eləcə də, Azərbaycan siyasi rəhbərliyinin bu düşüncələrini dəyərləndirməlidir və dəyərləndirib, ona obyektiv qiymət verməyə səy göstərməlidir. Əminəm ki, səfər zamanı Azərbaycan tərəfi Dağlıq Qarabağ məsələsini bütün konturları ilə Vladimir Putinin önünə sərəcək və ondan bu məsələlərə obyektiv mövqe sərgiləməyi tələb edəcəkdir. Güman edirəm ki, bu məsələdə əgər Rusiya normal mövqe sərgiləsə, məsələlər xeyri irəliyə doğru gedə bilər, yox, əgər Rusiyadakı kimi yenə də diplomatik gedişlər edərsə və müzakirələri daha da uzatmağa səy göstərəcəksə, bu, heç də Rusiyanın Cənubi Qafqazdakı mövqelərinə uyğun olmayacaq. Bu baxımdan, Vladimir Putinin bu məsələ ilə bağlı daha qətiyyətli addımlar atacağını gözləyirik.

"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: **"Azərbaycan-Rusiya münasibətləri bir-birlərinə qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanır "**



- Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana gözlənilən səfəri dövlət başçılarının, bir müddət əvvəl Soçidə reallaşan görüşünün davamı kimi qiymətləndirilməlidir. Həmin səfər zamanı Rusiya və Azərbaycan arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə mövcud olan əməkdaşlıqla bağlı tamamilə yeni və daha uğurlu bir səhifənin açıldığını söyləyə bilərik. Prezidentlərin də, vurğuladığı kimi, Azərbaycan-Rusiya münasibətləri mehriban qonşuluq, bir-birlərinə qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanır, həmçinin, strateji mahiyyət daşıyır. Təbii ki, dünyanın ən böyük dövlətlərindən birinin rəhbərinin Azərbaycana səfəri xüsusi əhəmiyyət daşıyan bir hadisədir. Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. Qeyri-neft sahəsi üzrə ixrac olunan məhsullarımızın, xüsusilə də, kənd təsərrüfatı əmtəəsinin ən böyük bazarı Rusiya sayılır. Soçidə iqtisadi əməkdaşlıqla bağlı imzalanan ikitərəfli sazişlər Rusiya və onun bölgələri ilə münasibətlərimizin yeni mərhələyə qalxmasına geniş imkanlar yaradır. Rusiya həm də Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk Qrupunun üç əsas həmsədrindən biridir. Belə olan halda, iki ölkə rəhbərlərinin hər bir görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin hər zaman ən əsas müzakirə mövzularından biri olması təbiidir. Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın da Moskvaya səfəri oldu. Bu baxımdan, Putinin səfəri həm də Azərbaycana qarşı tərəfin mövqeyinin daha da dəqiqləşdirilməsi ilə bağlı informasiya əldə etmək imkanı yaradır. Qeyd olunanları nəzərə alaraq, sentyabrın 25-də reallaşacaq səfərin yenidən Azərbaycan-Rusiya münasibətlərinin bütün sahələri üzrə geniş fikir mübadiləsi aparılması, əldə edilmiş razılaşmaların yerinə yetirilməsi üçün daha nələrin lazım olduğunun dəqiqləşdirilməsi, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin yenidən gündəmə gətirilməsi ilə bağlı xüsusi önəm daşıdığını vurğulaya bilərəm.

Fəlsəfə doktoru, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov: **"Bu məsələ də Rusiya Prezidentinin diqqətinə çatdırılacaqdır "**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sentyabr ayının 25-də Azərbaycana planlaşdırılan və xeyli maraq doğuran səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətli olacağına inanıram. Məlumdur ki, iki ölkə rəhbəri, bir müddət öncə, Soçidə görüşüblər və görüşdə hər iki ölkə arasında əlaqələrin inkişafı baxımından, önəm daşıyan sənədlər imzalayıblar. Ümumilikdə, iqtisadi və siyasi xarakter daşıyan 17 imzalanmış sənəd yaxın illərdə müvafiq istiqamətlərdə əməkdaşlığa töhfəsini verəcəkdir. Eyni zamanda, Soçi görüşündə 2024-cü ilə qədər fəaliyyət planı qəbul edilmiş, Azərbaycan və Rusiya dövlətləri arasında əməkdaşlığın inkişafı istiqamətində 5 memorandum imzalanmışdır. Bunlardan əlavə, iki qonşu dövlətin başçısı həm regional, həm beynəlxalq siyasi prosesləri müzakirə edərək, fikir mübadiləsi aparırdılar. Və elə Soçi görüşündə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Vladimir Putini onun üçün əlverişli vaxtda Bakıya dəvət etdi. Fikrimcə, sonuncu görüşdən cəmi 24 gün keçəndən sonra Vladimir Putinin Bakıya səfəri həm Soçi görüşündə iki ölkə liderinin apardıqları müzakirələrin davamı olacaq, həm hərbi-texniki əməkdaşlıq, həm də enerji məsələləri müzakirə oluna bilər və hesab edirəm ki, görüşdə yenə də Dağlıq Qarabağ münaqişəsi ətrafında da fikir mübadiləsi aparılacaq. Bunu bir qədər öncə Rusiya Dövlət Dumasının MDB ilə iş üzrə komitəsinin rəhbəri Leonid Kalaşnikov da bəyan etmişdi. Bilirik ki, Rusiya tərəfi ikitərəfli münasi-



bətləri Dağlıq Qarabağ münaqişəsindən ayrı tutmaqda maraqlıdır. Amma bunun əksinə olaraq, Azərbaycan Prezidenti İlham Əliyev bütün dövlət başçıları ilə, beynəlxalq qurumların rəhbərləri ilə görüşlərdə, ən mötəbər məclislərdə çıxışlarında Dağlıq Qarabağ münaqişəsini, müzakirə mövzusu olaraq, ilk planda təqdim edir. Yəni bizim dövlət başçımızın bütün xarici siyasət kursunu Qarabağ prizmasından qurması və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində son dərəcə qətiyyət nümayiş etdirməsi hamıya məlumdur. İnanıram ki, budəfəki görüşdə də Qarabağ məsələsinin həlli istiqamətində müzakirələr əsas məqam olacaqdır. Ermənistanın yeni baş nazirinin Rusiyaya məlum səfəri və prezident Putinlə danışıqlarda münaqişə ilə bağlı səsləndirdiyi sərsəm fikirlər Azərbaycan tərəfinin daha sərt mövqe ortaya qoymasını diktə edir. Yəqin ki, bu məsələ də Rusiya prezidentinin diqqətinə çatdırılacaqdır. Azərbaycan və Rusiya dövlət başçılarının qarşılıqlı səfərlərinin və ikitərəfli görüşlərinin intensivliyi, bir daha onu göstərir ki, Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən Rusiya üçün daha çox maraq kəsb edir və ümid edirəm ki, bu məqam ölkəmizin bir nömrəli probleminin həllində Rusiya tərəfinin həm də vasitəçi dövlət kimi mövqeyinin dəyişməsinə gətirib çıxara bilər. İndiki halda, konkret münaqişə ilə bağlı hansısa prinsipial qərarın qəbul edilməsi, təbii ki, həm iqtisadi, həm siyasi və hərbi cəhətdən asılı Ermənistana Rusiyanın mövcud mövqeyinin dəyişməsindən asılıdır.

***GÜLYANƏ***

## Millət vəkili: "Paşinyanın oğlu mətbəx işi ilə məşğuldur"

"Ermənistanın baş naziri Nikol Paşinyan siyasətdə çox təcrübəsiz bir insandır. Onun başı bu gün daxili siyasi mübarizəyə qarışıb. 2016-cı ilin aprel hadisələrindən sonra qazandığı reytinqi itirməkdədir. Bu baxımdan onun üçün yad olan bir mövzuya Dağlıq Qarabağ mövzusuna dair bir-birinə zidd bəyanatlar



verməkdədir". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, hərbi xidmət çəkməmiş, barıt iyi qoxlamamış bir insan bu gün hərbi məsələlərə dair çox cəfəng fikirlər irəli sürür: "Bu günlərdə yayılan məlumata görə, Paşinyanın oğlu cəbhə xəttindən uzaqda sadəcə olaraq mətbəx işi ilə məşğuldur. Özünün isə Dağlıq Qarabağa qanunsuz səfərləri sadəcə mətbuatda foto-şəkillər yaymaq üçündür. Onun bəyanatları bu gün Ermənistan üçün böyük təhlükədir. Azərbaycanın iqtisadi qüdrəti, siyasi nüfuzu ən əsası güclü hərbi qüvvəsi Dağlıq Qarabağ problemini həll etməyə imkan vermir. Cənab Prezidentimiz açıqladığı kimi bir neçə gün bundan əvvəl Ermənistan Silahlı Qüvvələrinə çox ciddi zərbələr endirildi. Aprel hadisələri, Günnüt hadisəsinin təkrarı həmişə gözləniləndir. Bu dəfə Azərbaycan Aprel hadisələrini təkrarlayarsa, bu, artıq Paşinyanın hakimiyyətdən getməsi ilə deyil, Ermənistan üçün çox böyük ciddi və ağır nəticə ilə yekunlaşacaq".

## Bu ildən Azərbaycanda arıçılara saxladıqları hər arı ailəsinə görə 10 manat subsidiya veriləcək

Azərbaycanda arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə bu ildən etibarən subsidiya veriləcək. Arıçılar saxladıqları hər arı ailəsinə (pətəyə) görə 10 manat məbləğində subsidiya alacaqlar. AZƏRTAC xəbər verir ki, artıq Nazirlər Kabineti "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nı təsdiq edib. Yeni qayda "Azərbaycan Respublika-



sında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə təsdiqlənib.

Arı ailələrinin (pətəklərin) identikləşdirilməsi və hər arı ailəsinə (pətəyə) görə subsidiyanın verilməsi üçün arıçılıq təsərrüfatları "Arıçılıq təsərrüfatlarının uçotu Qaydası"nın tələblərinə uyğun uçota alınmalıdır. Subsidiya verilməsinin təşkili üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən rayon (şəhər) komissiyaları yaradılacaq. Bu qərar 2018-ci il də daxil olmaqla, 5 il müddətində qüvvədədir. Arıçılar ərizələrini, fiziki şəxslər üçün şəxsiyyət vəsiqəsinin, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər üçün VÖEN-in surətini, subsidiyanın köçürüləcəyi bank hesabına dair məlumatları hər il aprel ayının 30-dək arıçılıq təsərrüfatının yerləşdiyi rayon (şəhər) komissiyalarına təqdim etməlidirlər.

# Sülhsevər Azərbaycan dünyaya nümunədir

## 21 Sentyabr - Beynəlxalq Sülh Günüdür



**Sülh bəşəriyyətin ehtiyac duyduğu ən qiymətli vasitədir. Bu, elə bir anlamdır ki, əsrlər boyu bəşər övladı sülh şəraitində yaşamaq-yaratmaq, dünya xalqları ilə əmin-amanlıq şəraitində əlaqə qurmaq, əməkdaşlıq etmək arzusunda olub və bu gün də belədir. Əlbəttə ki, sülhün hökm sürdüyü məkanda qurub-yaratmaq, dinclik-sosial, iqtisadi və mədəni inkişaf var. Açıq səma altında insanlar dünyanın gözəlliyini duymaq, azadlıq, bərabərlik və ədalətin hökm sürməsini istəyirlər.**

Müasir və modernləşən Azərbaycan bu gün sülhməramlı niyyəti ilə dünyaya nümunədir. Ölkədə hökm sürən əmin-amanlıq mühiti, sülh və həmrəylik, birgəyaşayışı tolerantlıq mühiti bəşəriyyətə sülh şəraitində yaşamaq üçün bir mesajdır. Belə bir xoşniyyətli Azərbaycan bu gün 21 sentyabr tarixini - Beynəlxalq Sülh Gününü qeyd edir. Bildiyimiz kimi, BMT Baş Məclisi 21 sentyabrı Beynəlxalq Sülh Günü olaraq, dəyişməz bir tarix kimi təsdiq edib. Beynəlxalq Sülh Günü BMT-nin elan etdiyi yeganə rəsmi bayramdır və BMT həmin günü dünyanın bütün qaynar nöqtələrində atəşkəsin gözlənilməsini tələb edir. Bu bayram BMT Baş Assambleyasının 1981-ci il 30 noyabr tarixli qərarı ilə bütün dünya tərəfindən 1982-ci ildən qeyd olunmağa başlayıb. Həmin vaxtdan etibarən hər il BMT-nin baş katibi dünya xalqlarına müraciət edir. 1954-cü ildə BMT-nin Nyu-Yorkdakı qərargahının həyətində Yaponiya tərəfindən bağışlanmış "Sülh Zəngi" quraşdırılıb. Bu zəngin gövdəsi dünyanın bütün qitələrini təmsil edən 60 ölkənin uşaqları tərəfindən toplanaraq, Xirosima və Naqasaki faciələrinin baş verdiyi Yaponiyaya göndərilən metal pulların, yüzlərlə döyüşçüyə məxsus orden və medalların əritinsindən hazırlanıb. Hər il bu bayram, məhz "Sülh Zəngi"nin çalınması ilə başlayır.

Dünya ölkələrinin yekdil qərarı ilə BMT tərəfindən təsdiqini tapmış bu günün mahiyyəti öz məzmunu etibarı ilə böyük əhəmiyyət kəsb edir. 21 sentyabr tarixi, nəinki xalqlar arasında, həmçinin, ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına və köklü zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir gündür. BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günü münasibətilə dünya xalqlarına müraciətlərində deyilir ki, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda, inkişaf, tərəqqi və bəşəri təhlükəsizliyə təminatdır.

### AZƏRBAYCAN HƏR ZAMAN MÜNAQİŞƏNİN SÜLH YOLU İLƏ ARADAN QALDIRILMASI İSTİQAMƏTİNDƏ MÜHÜM ADDIMLAR ATIB

Sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində aparılan beynəlxalq miqyaslı tədbirlər nəticəsiz qaldıqca, insanların qorxu və vahimə içərisində yaşamaları da davam edir. Azərbaycan xalqı bu gün Beynəlxalq Sülh Gününü qeyd etsə də, amma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamışdır. Təəssüf ki, ən sülhsevər xalqlardan biri olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz Vətənlərində didərginə dönüblər, uzun illər ərzində qurduqları ev-eşiklərindən, topladıqları sərvətlərindən məhrum olublar. Bu illərdə Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyon qaçqın və məcburi köçkünlə görüşlərində, bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərməkdədir. Ermənistan, nəinki atəşkəsə əməl etmir, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edildiyini, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparıldığını və bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirmişdir: "Ermənistan Xocalı soyqırımını törətmişdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır". Cənab İlham Əliyev münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin olduğunu diqqətə çatdıraraq, bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb edildiyini vurğulayıb: "Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə, İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır".

Azərbaycan sülsevər siyasətini davam etdirsə də, amma Ermənistan çirkin niyyətini davam etdirməkdədir. Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması, mülki şəxslərin öldürülməsi, xüsusilə, uşaqları məqsədyönlü şəkildə hədəfə alması Ermənistan dövlətinin yürütdüyü işğalçılıq siyasətinin tərkib hissəsidir. Ötən il iyulun 4-də Ermənistan silahlı qüvvələrinin Alxanlı kəndinə hücumu nəticəsində Sahibə Allahverdiyeva və onun iki yaşlı nəvəsi Zəhranın qətlə yetirilməsi, Sərvinaz Quliyevanın isə ağır yaralanması, bir daha onu göstərir ki, Ermənistan dövləti öz təcavüzkar siyasəti ilə beynəlxalq hüququn norma və prinsiplərini pozur, region üçün təhlükə yaratmış olur.

Əgər bu gün dünyada sülhə çağırışlar ediriksə, onda dinc sakinlərin, qocaların, qadınların və körpə uşaqların qətlə yetirilməsinə biganəlik göstərilməməlidir. Bu gün Azərbaycan qüdrətli və güclü orduya malikdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür.

### AZƏRBAYCANDA MÜXTƏLİF DİNLƏRƏ MƏNSUB VƏ FƏRQLİ ADƏT-ƏNƏNƏLƏRİ OLAN XALQLARIN NÜMAYƏNDƏLƏRİ SÜLH ŞƏRAİTİNDƏ YAŞAYIR

Dünyada baş verən neqativ hadisələr fonunda Azərbaycan digər ölkələrin nümunə götürəcəyi müsbət bir modeldir. Azərbaycanda müxtəlif dinlərə mənsub və fərqli adət-ənənələri olan xalqların nümayəndələri əsrlərdir ki, mehriban və sülh şəraitində birgə yaşayır və yaşayacaqlar. Bəli, bu, Azərbaycan gerçəklikləridir. Müasir dünyada yüksək texnologiyalara sahib inkişaf etmiş bəzi ölkələr bəşər insanına yardım göstərməkdə tərəddüd etdiyi halda, Azərbaycan öz qucağını dinindən və irqindən asılı olmayaraq, bəşər İNSANINA açır. Azərbaycan rəhbərliyi humanitar fəlakətlərin qarşısının alınması, öz yurdlarından didərgin düşmüş insanlara dünyanın istənilən yerində hərtərəfli dəstək verilməsi istiqamətində təsirli addımlar atıb. Qeyd etdiyimiz kimi, uzun illərdir ki, Ermənistan Azərbaycan ərazisini işğal edib, milyonlarla dinc insan öz yurdundan didərgin salınsa da, Azərbaycan sülhsevər siyasətini davam etdirir, humanitar sahədə əməkdaşlığını davam etdirir. Humanizm, mədəniyyət, tolerantlıq və dialoq vasitələrinə üstünlük verir.

ABŞ-da və Avropa məkanında irqçilik, dözümsüzlük, ekstremizm və ksenofobiya kimi cərəyanların baş qaldırdığı halda, Azərbaycan reallıqları başqa bir mənzərə yaradır. Bəzi Avropa ölkələrində irqçiliyin, dözümsüzlüyün, nifrət yayan və bu kimi digər ekstremist və ksenofob cərəyanların baş qaldırması müşahidə olunur. Belə bir tendensiya Avropada sülh və demokratik təhlükəsizlik üçün təhdid yaradır. Özbaşınalıqlar, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, irqi ayrı-seçkilik, digər dövlətlərin daxili işlərinə qarışma və bu kimi demokratiyaya zidd hərəkətlər, artıq onların əməli fəaliyyətinin məntiqi olaraq ortaya çıxıb. Bu dövlətlərin demokratik dəyərlərə sadiqliyi şübhə doğurur. Amma nədənsə, beynəlxalq hüquq-müdafiə təşkilatları, həmçinin, özlərini demokratiyanın beşiyi sayan Qərb dövlətləri bütün bunlara göz yummaqda davam edirlər. Son illər baş verən hadisələr təsdiqləyir ki, harada Qərbin maraqları qorunursa, orada insan haqlarının pozulmasına, işğalçılıq faktlarına, terror aktlarına və irqi ayrı-seçkiliyə göz yumurlar. Hadisələrin bu məcrada davamı, beynəlxalq aləmdə baş verən hadisələr, bir daha təsdiqləyir ki, islamofobiya Qərbdə sanki həyat tərzinə çevrilib. Azərbaycanda isə multikuluralizm həyat tərzidir.

Bu gün Beynəlxalq Sülh Gününü qeyd edən Azərbaycan yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, hər kəsi sülhə səsləyir. Dünyada analoqu olmayan bir faciəni - Xocalı faciəsini yaşayan bir xalq bir də dünyada belə bir soyqırımının təkrarlanmasını istəmir. Münaqişə ocaqlarının alovlanmasının qarşısını almağa çalışır. Dünyamıza sülh gərəkdir! Sülhə gəlin ey insanlar, yoxsa dünya məhv olar!

**ZÜMRÜD BAYRAMOVA**

# Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti erməni terrorçu-daşnak qüvvələrinin terror əməllərini sübut edən arxiv sənədlərini yayıb






***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) erməni terrorçu-daşnak qüvvələrinin terror əməllərini sübut edən arxiv sənədlərini yayıb. AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti arxivlərində saxlanılan sənədli materialların bir qisminin üzərindən məxfiliyi götürüb.***

DTX-nin bu barədə yaydığı məlumatda deyilir ki, 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrinin imzalanması ilə Azərbaycanın tarixi və əzəli torpaqlarının bölünməsi başa çatmadı, əksinə ərazilərimizin zorən qoparılması prosesi düşmən qüvvələrin himayəsi, təhriki və bilavasitə iştirakı ilə ardıcıl xarakter aldı və davam etdi. Bir çox qonşu ölkələrdə yaşayan ermənilərin məqsədli şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlandı və azərbaycanlıların dədə-baba yurdlarında "erməni vilayəti" adlandırılan qondarma inzibati ərazi bölgüsü yaradıldı. Daha sonra isə "böyük Ermənistan" xülyası təbliğ olunmağa başlanıldı və bu məqsədlə kökündə vəhşət və terrorun dayandığı müxtəlif erməni təşkilatları meydana çıxdı. Bununla da erməni-daşnak qüvvələrinin Azərbaycan xalqının məhv edilməsi və onun torpaqlarının qəsb olunması istiqamətində daha məkrli və məqsədyönlü siyasətinin bünövrəsi qoyuldu.

Müasir Ermənistanda terrorçuluq və faşizm ideologiyası dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu ideologiya bünövrədən qonşu dövlətlərə əsassız ərazi iddialarının, azərbaycanlılara, türklərə və digər xalqlara qarşı etnik təmizləmə siyasətinin başlıca xəttini təşkil edir. Erməni terrorçu-daşnak qüvvələri hər zaman öz məkrli hədəflərinə çatmaq üçün ən çirkin üsullardan istifadə etmiş, hətta tarixi Azərbaycan torpaqlarında onların köçürülməsinə rəvac vermiş, himayə etmiş çar və sovet Rusiyasına qarşı çıxmaqdan belə çəkinməmişlər. İkinci Dünya müharibəsində faşistlərin silahlı birləşmələrinin tərkibində erməni cəlladlarının törətdikləri vəhşiliklər barədə tutarlı sübutlar incələndikcə bu dəhşətlərin nəticələri vahimə yaradır. Bu gün Ermənistanda hansı siyasi qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, şovinizm, ekstremizm, hərbi təcavüz, qəsbkarlıq hər zaman ən ifrat formada təbliğ və təşviq olunur, gənc nəsil qonşu xalqlara nifrət və dözümsüzlük ruhunda tərbiyə edilir, insanlığa qarşı cinayətlər törətmiş ermənilərin "qəhrəman" obrazının aşılanması, onlara abidə qoymaqla faşizm "vətənpərvərlik" əmsalı kimi ictimai şüura təlqin edilir.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti-nin arxivlərində saxlanılan sənədli materialların araşdırılması zamanı erməni terrorçu-daşnak qüvvələrinin, o cümlədən terrorizm ideologiyasının daşıyıcısı olan "Daşnaksutyun" partiyasının, habelə İkinci Dünya müharibəsi illərində bəşəriyyətə qarşı cinayətlərdə xüsusi amansızlıqla fərqlənmiş erməni milliyyətindən olan şəxslərin qəddar əməlləri çoxsaylı faktlarla təsdiqini tapmışdır.

Bu arxivlərdəki sənədli materialların mütərəqqi dünyanın terrordan və faşizmin fəsadlarından qorunması baxımından elmi-tarixi əhəmiyyətini, Ermənistanın Azərbaycana qarşı yeritdiyi qəsbkarlıq və hərbi təcavüz siyasətinin nəticələrinin beynəlxalq ictimaiyyətə çatdırılmasının xüsusi aktuallıq kəsb



etdiyini və bu siyasətin ifşa olunmasında ilkin sənədli mənbələrə istinadın zəruriliyini nəzərə alaraq, Dövlət Təhlükəsizliyi Xidməti arxivlərində saxlanılan sənədli materialların bir qisminin üzərindən məxfiliyin götürülməsi və onların geniş ictimaiyyətə açıqlanmasını məqsədəmüvafiq hesab etmişdir. Həmin materialların DTX-nin rəsmi internet səhifəsində yerləşdirilməsinə qərar verilmişdir. Hörmətli istifadəçilərdən və kütləvi informasiya vasitələri nümayəndələrindən bu sənədli arxiv materiallarından yararlanarkən hiperlinkə istinad etmələri xahiş olunur.

1) DTX arxiv: arx. delo № 65,t.1. (21-22 ,78-83,84-86)
2) DTX arxiv: arx.delo № 65, t.9, s.6-35
3) DTX arxiv: arx.delo № 65, t.12. (2-6,7-11,12-17,20-26,27-28,29-30,39-41
4) DTX arxiv: arx.delo №65, t.5, (s.395)
5) DTX arxiv: liternoe delo 164 (10-12, 16-36, 75-77, 78-83, 84,89-92, 93-97, 108-306, 307-311,319-324,354-55) - 1-ci hissə
6) DTX arxiv: liternoe delo 164 (10-12, 16-36, 75-77, 78-83, 84,89-92, 93-97, 108-306, 307-311,319-324,354-55)- 2-ci hissə
7) DTX arxiv: PS-75 (41,47, 48,69-78,99)
8) DTX arxiv: PS-20795, t. 21, (224-235)
9) DTX arxiv: PF № 853 (91-94)
10) DTX arxiv: PF 787 (67-70, 83-95)
11) DTX arxiv: PF-787 (1-34,,58-63,73-82,92-96)
12) DTX arxiv: PF-787-4,(6,7,13,17,18,19,21,25)
13) DTX arxiv: PF-787-4(20-22)
14) DTX arxiv: PF-861 (7-11)
15) DTX arxiv: spisok №1, s.3, spisok№2, s.3

## Allahşükür Paşazadə: "Qanvermə aksiyası təkcə din xadimləri üçün deyil"

"Aşura günü münasibətilə bütün dünya müsəlmanlarına başsağlığı verir, torpaqlarımızın azadlığı uğurunda həlak olanlara rəhmət diləyirəm". SİA-nın xəbərinə görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə qan verdikdən sonra jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, artıq illərdir ki, şəhidlərimizi yad edib qan verir bununla başqalarına həyat veririk: "Bu gün bizim adətlərimiz var. Hər yerdə Aşura ilə bağlı tədbirlər keçirilir. QMİ-nin fətvasında yer alan məsələlərə diqqət edilməlidir. Elə məsələlər var ki, buna din yol vermir. Zəncir vurmaq, baş yarmaq düzgün hesab edilmir. Bu gün Azərbaycanda qəbul olunan fətvaları məhdudiyyət kimi qələmə verirlər. Lakin Azərbaycanda hər kəsə məlumdur ki, dindarlar üçün bütün şərait yaradılıb". QMİ sədrinin sözlərinə görə, Məhərrəm ayından sonra Fatimeyi-Zəhra məscidinin tikintisinə başlanacaq: "Azərbaycanda digər dinlərə də hörmətlə yanaşılır. Din-dövlət münasibətləri yüksək səviyyədədir. Bu yaxınlarda dövlət başçısının tövsiyəsi ilə İlahiyyat İnstitutu açıldı. Dindarlar adından Prezidentə təşəkkür edirik. Burada təkcə müsəlman deyil, digər dinlər üçün kadrlar hazırlanacaq. Azərbaycan dini cəhətdən zənginləşir, tanrının bizə verdiyi imkanlar sayəsində ölkəmiz inkişaf edir. Milli-mənəvi dəyərlərimizin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, bu məsələ dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir".



Aşura gününün Şəhadət günü olduğunu deyən QMİ sədri vurğulayıb ki, bütün müsəlmanlar İmam Hüseyni yada salmalıdırlar: "Bizi birləşdirən Quranı-Kərimimiz var. İnanırıq ki, Məhərrəm ayı dini təlimatlara uyğun şəkildə keçiriləcək. Dindarlarımızı QMİ-nin fətvası uyğun şəkildə addım atmağa çağırırıq. Qanvermə aksiyası təkcə din xadimləri üçün deyil, ümumi azərbaycançılığın təbliğatıdır. Bütün xalqımızı bu işdə yaxından iştirak etməyə çağırıram".

## Eldar İbrahimov: "Qan vermək hər bir azərbaycanlının borcudur"



"Azərbaycan tolerant ölkədir. Qan vermək hər bir azərbaycanlının borcudur". SİA-nın xəbərinə görə, bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov qan verdikdən sonra jurnalistlərə verdiyi açıqlamada deyib. Onun sözlərinə görə, qanvermə aksiyasında verilən qanlar hansısa xəstəyə kömək olursa, bu bizim xoşbəxtliyimizdir. Azərbaycanda qanvermə aksiyasının bir ənənə şəklinin aldığını və yüksək səviyyədə təşkil olunduğunu deyən E.İbrahimov aksiyalara gələn insanların ildən ilə artdığını xüsusi olaraq qeyd edib: "Qanvermə aksiyalarında insan axınını görürük. Bu aksiya son illər yüksək səviyyədə keçirilir. Hər bir insan aksiyalarda aktiv iştirak edir. İnsanlar bilir ki, onların verdiyi qan hansısa xəstəyə kömək olacaq".

## Qanvermə aksiyasında 2403 litr qan tədarük olunub



Azərbaycanda Aşura günü ilə əlaqədar Səhiyyə Nazirliyinin və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyası davam edir. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin mütəxəssisi Səfayə Əhmədovanın SİA-ya verdiyi məlumata görə, hazırda respublika üzrə 5 min 340 adam qan verib: "Ümumilikdə 2403 litr qan tədarük olunub".

# Aşura günü könüllü qanvermə aksiyası keçirilib

***Hər il olduğu kimi, bu il də Peyğəmbərimiz Həzrət Məhəmmədin (s) əziz nəvəsi, müsəlmanların 3-cü İmamı Həzrət İmam Hüseyn (ə) və məsləkdaşlarının Aşura faciəsi ilə bağlı paytaxt Bakıda və bölgələrdə qanvermə aksiyası keçirilib. SİA-nın verdiyi məlumata görə, dünən səhər saat 9:00-dan başlayan qanvermə aksiyası insanların aktiv iştirakı ilə davam edib. Səhiyyə Nazirliyinin və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə keçirilən könüllü qanvermə aksiyaları Bakı şəhəri üzrə: Binəqədi rayonu "İmam Əli məscidi", Xəzər rayonu 14 saylı Birləşmiş Şəhər xəstəxanası və "Mir Mövsüm ağa Ziyarətgahı", Nəsimi rayonu "Əjdər bəy məscidi " (mərasim zalı) və 20 saylı şəhər poliklinikası, Nizami rayonu "Şah Abbas məscidi" , Sabunçu rayonu "Rəhimə xanım ziyarətgahı", Səbail rayonu "Bibiheybət məscid ziyarətgahı "və "İçəri şəhər Cümə məscidi", Suraxanı rayonu "Qaracuxur məscidi", Yasamal rayonunda "Təzə pir məscidi" və "Hacı Soltanəli məscidi".***





Gəncə şəhəri "İmamzadə kompleksi", Lənkəran şəhəri "Böyük bazar məscidi", Mingəçevir şəhəri "Heydər məscidi" , Sumqayıt şəhər "Cümə məscidi", Şəki şəhəri "İmam Əli məscidi", Mərkəzi Qan bankının Şırvan bölməsi, Ağcabədi Mərkəzi rayon xəstəxanası, Beyləqan Mərkəzi rayon xəstəxanası, Bərdə rayonu "Bərdə İmamzadəsi", Biləsuvar rayonu "Cümə məscidi"(mərasim zalı), Cəlilabad Mərkəzi rayon Xəstəxanası, Xaçmaz şəhər Məscidi, Ağsu rayon Mərkəzi Xəstəxanası, Qan bankının Quba bölgəsi, Masallı şəhər Cümə məscidində təşkil olunub.

"Təzəpir" Məscidində keçirilən qanvermə aksiyasında da insan axını gözümüzdən yayınmadı. İnsanların növbəyə durması, yüzlərlə insana şəfa vermək istəyi hər birimiz üçün sevindirici məqam idi.

## "Builki qanvermə aksiyalarına daha çox insan müraciət edib"

Qanvermə aksiyası ilə bağlı SƏS TV-yə müsahibə verən Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlmirzəyeva söyləyib ki, artıq 15 ilə yaxındır ki, respublikada Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq qanvermə aksiyaları keçirilir. Onun sözlərinə görə, aksiyalar respublika üzrə 28 məntəqədə, eləcə də Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun nəzdində yerləşən Mərkəzi Bankında keçirilir: "Ötən illə müqayisədə bu il məntəqələrin sayı artırılıb. 16 bölgədə qanvermə aksiyaları təşkil olunub. Bura Mərkəzi Qan Bankının bölmələri, xəstəxanalar, məscidlər daxildir. Bölgələr üzrə 10 məsciddə, 4 xəstəxanada, 2 Mərkəzi Qan Bankının bölmələrində hazırda qanvermə aksiyaları keçirilir. Bakı şəhərində inzibati rayonda yerləşən 10 məscid, eləcə də xəstəxanalarda qanvermə aksiyaları keçirilir".



Aksiyalara Mərkəzi Qan Bankının əməkdaşlarının cəlb olunduğunu deyən Z.Əlmirzəyeva söyləyib ki, Milli Onkologiya Mərkəzi, Neftçilər Xəstəxanası, Elmi Tədqiqat və Cərrahiyə Mərkəzi, Klinik Tibbi Mərkəzi, 3 saylı Xəstəxananın Qan Bankının əməkdaşları da bu işdə yardım edirlər: "Builki qanvermə aksiyalarına daha çox insan müraciət edib. Ötən il ümumilikdə 4 minə yaxın insan qan vermişdisə, bu gün günorta saatlarına olan rəqəmlərə nəzər yetirsək, artıq 4 mindən çox insanın qan verdiyinin şahidi olarıq. Günün sonuna qədər bu rəqəmlərin bir neçə dəfə artacağı gözlənilir".

## Kimlər qanverməyə buraxılmır?

İnstitutun direktoru qeyd edib ki, qanverməyə gələn insanlar ilk növbədə müayinə olunur, onlarla sorğu aparılır: "Onlarda hər hansı xəstəliyin olub-olmaması mütləq şəkildə araşdırılır. Qanverməyə sağlam qanı olan insanlar buraxılır. Əgər hər hansı bir xəstəliyə şübhə varsa, həmin insanlar qanverməyə buraxılmır. Burada virus xəstəlikləri, infeksion, cərrahi əməliyyatlar, onkoloji xəstələr, digər xroniki xəstəliklər, hər hansı prosedur, müalicə alan, son iki-üç ay müddətində xarici ölkədə səyahətdə olan insanlar infeksiyaya yoluxmaya görə qanverməyə buraxılmırlar. Daha sonra hemoqlobinin səviyyəsi, qan qrupları yoxlanılır və donorlardan qanlar alınaraq Mərkəzi Qan Bankında eləcə də bizim bölmələrdə virusların olmasına görə müayinələr aparılır. Qanın təhlükəsizliyinə tam əmin olduqdan sonra təmiz qanlar komponentlərə bölünərək ehtiyacı olan insanlara verilir".



## "Bu cür aksiyaları yüksək qiymətləndirirəm"

Mütəmadi olaraq könüllü qanvermə aksiyalarına qoşulduğunu deyən aksiya iştirakçısı Samir Şirəliyev bu işə xeyir verməyə çalışdığını dilə gətirib: "Qan verməyimin səbəbi qana ehtiyacı olan xəstələrə şəfa verməkdir. Verdiyim qanla kiməsə xeyir vermiş oluruqsa, bu, mənim üçün böyük sevincdir. Biz qan verməklə kimlərinsə sağlamlığına təsir edib, onu xilas etmiş ola bilərik. Bu cür qanvermə aksiyalarını yüksək qiymətləndirirəm. Lakin insan axınını nəzərə almaq şərtilə aksiya keçirilən məkanların qarşısında kölgəlik və ya oturmaq üçün yer yaradılsa daha yaxşı olar. Qanvermə aksiyaları həm də insanların birliyinin göstəricisidir. Mən bütün insanları, xüsusilə də müsəlmanları, xalqımızı birliyə çağırır, onların da könüllü qanvermə aksiyalarına səsləyirəm. Biz bu birlikdə tezliklə işğal altında torpaqlarımızı da geri qaytaracağıq".

## "Qan verməklə insanlara kömək edə bilərik"

Aksiya iştirakçısı Şəlalə İbrahimova könüllü qanvermə aksiyasına ilk dəfə qoşulduğunu deyib: "Mən ilk dəfədir ki, qanvermə aksiyasına qoşuluram. Aksiyada iştirak etməyimin səbəbi, xərçəng və eləcə də digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etməkdir. Bu gün başqa yollarla qan çıxarmaq istəyən insanları bu cür aksiyalarda iştirak etməyə dəvət edirəm. Çünki, biz qan verməklə xəstə uşaqlara, qəza keçirən insanlara kömək edə bilərik. Mənim kimi indiyədək bu aksiyada iştirak etməyən insanlara çağırış edib onları qan verməyə dəvət edirəm. Allah bütün xəstələrə şəfa versin!".

## "Yardım etmək müsəlman aləmində bəyənilən addımlardandır"

Artıq 15 ilə yaxındır Aşura günündə təşkil olunan qanvermə aksiyalarının aktiv iştirakçısı olan Eldəniz Məmmədovun məqsədi xəstələrə şəfa nəsib etməkdir: "Mənim əsas məqsədim talassemiyalı xəstələrə yardım etməkdir. Qan qrupları arasında daha çox müsbət resurslu birinci qan qrupuna ehtiyac olduğunu bildiyim üçün hər il bu aksiyalara qoşulmağı özümə borc bilirəm. Yardım etmək müsəlman aləmində bəyənilən addımlardandır. Bunu əsas tutaraq Tanrı yolunda qan verib, körpələrə, qana ehtiyacı olanlara yardım etməyə çalışıram. Kömək etmək mənim niyyətimdir və hər il bu niyyəti yerinə yetirirəm. Qanvermə aksiyalarının keçirilməsini, həkimlərin fəaliyyətini yüksək qiymətləndirirəm. Lakin növbə gözləmək üçün yerlər ayrılsa və ya qanvermə aksiyalarının təşkil edildiyi məkanlarda turniketlər quraşdırılsa növbə gözləyən insanların işini daha da asanlaşdırar. Hər kəs insanlıq naminə bu aksiyalara qoşulmalıdır".

***Nailə MƏHƏRRƏMOVA***

# "İki sahil" Neftçilər Gününə həsr olunmuş xüsusi buraxılış hazırlayıb

***"İki sahil" qəzetinin 20 Sentyabr - Neftçilər Gününə həsr olunmuş növbəti xüsusi buraxılışı çapdan çıxıb. 84 səhifəlik xüsusi buraxılış Azərbaycanın neft-qaz sənayesinin 24 ildə keçdiyi inkişaf yolunu, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun struktur bölmələrinin fəaliyyətini əks etdirən maraqlı yazıları, foto-şəkilləri və yüksək poliqrafik tərtibatı ilə diqqət çəkir. Xüsusi buraxılışda Ümummilli Liderin bugünkü uğurlarımıza inam və əminliyi ifadə edən bir tezisi qeyd olunur: "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmləndirilməsi üçün gözəl imkan yaradacaq. İnanıram ki, XXI əsr Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq."***

Azərbaycan bu gün neft strategiyasının davamlı uğurlarını yaşayır. Xüsusi buraxılışda yer alan Möhtərəm Prezident İlham Əliyevin bu fikri Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası nəticəsində, dünyanın enerji təhlükəsizliyinin təminatında artan roluna, regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru atılan addımlara işıq salır: "Azərbaycan qazı yeni mənbədir və "Cənub Qaz Dəhlizi" yeni enerji damarıdır. Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir." SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin "SOCAR öz inkişafının yeni mərhələsinə qədəm qoyur" sərlövhəli yazısında Azərbaycanın enerji sektorunda qazandığı uğurlar təhlil edilərək, xüsusi vurğulanır ki, dövlətimizin başçısı İlham Əliyevin uzaqgörən strateji kursu və qarşımızda qoyduğu vəzifələr SOCAR-ı qlobal brend səviyyəsinə qədər yüksəltdi. Bu uğurlar, eyni zamanda, Azərbaycan neftçilərinin fədakar əməyindən, zəngin təcrübəsindən və peşəkarlığından qaynaqlanır. SOCAR və Azərbaycan üçün təleyüklü olan cari ildə əsas layihələrin tamamlanması inkişafın son nöqtəsi deyil, məhz dönüş nöqtəsidir ki, qarşıda yeni üfüqlər açır və yeni çağırışlar gətirir. Odur ki, əvvəlki layihələr hələ tamamlanmamış yeni layihələrin təməlini qoymaq SOCAR-ın qarşısında duran ən mühüm vəzifədir.

Məqalədə qeyd edilir ki, müstəqiliyimizin ilk illərində SOCAR-ın qarşısında duran əsas vəzifələri ölkə iqtisadiyyatının dirçəlməsi, bu məqsədlə neft hasilatını artırmaq və dənizin dərinsulu hissəsində yeni yataqların işlənməsi üçün xaricdən investisiya və texnologiyalar cəlb etmək idisə, artıq hədəflər dəyişib. SOCAR indi daxili imkanları hesabına müasir dərin dəniz özülləri inşa edir, quraşdırır, istismar edir, dənizin böyük dərinliklərində qazma işlərini yerinə yetirir, ən müasir standartlar səviyyəsində sənaye müəssisələri qurur, böyük transmilli layihələrdə operator qismində iştirak edir və xarici bazarlara sərmayə yatırır.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin "Azərbaycanın neft və qaz strategiyası: genişlənən üfüqlər" sərlövhəli yazısında isə qeyd edilir ki, Ulu Öndər Heydər Əliyevin qısa müddətdə işləyib-hazırladığı neft və qaz strategiyası müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı iqtisadi böhranın aradan qaldırılmasında lokomotiv rolunu oynadı. Xarici ölkələrin məşhur neft şirkətləri ilə 1994-cü ilin martında Bakıda başlanmış, may ayında İstanbulda və iyulun 21-dən sentyabrın 4-dək Amerika Birləşmiş Ştatlarının Hyüston şəhərində davam etdirilmiş gərgin danışıqlar həmin il sentyabrın 20-də Bakıda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında, sonralar dünyanın neft ictimaiyyəti və mediasının haqlı olaraq, "Əsrin müqaviləsi" adlandırdığı məşhur sazişlə nəticələndi.

Yazıda "Əsrin müqaviləsi"nin imzalanmasından ötən dövr ərzində əldə olunan uğurlara, həyata keçirilən layihələrə bir daha diqqət yönəldilərək, ötən ilin sentyabrında "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsinə dair 1994-cü ildə 30 il müddətinə bağlanmış sazişin, yeni "Əsrin müqaviləsi"nin vaxtının uzadılması haqqında müqavilənin imzalanmasından geniş bəhs edilir. Vurğulanır ki, yeni müqavilədə Azərbaycan üçün olduqca sərfəli şərtlər müəyyən edilib. 2050-ci ilədək AÇG-dən daha 500 milyon tona qədər neft hasil ediləcək və o vaxtadək bu yataqlara indiyədək qoyulduğu qədər, yəni daha 43 milyard dollar sərmayə qoyulacaq.




Xüsusi buraxılışda SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr və qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır. "Korporativ idarəetmə prinsiplərinə xüsusi önəm verilir", "Qabaqcıl texnologiya və idarəetmənin tətbiqində yeniliklər", "SOCAR istiqrazları: təkrar bazar əməliyyatlarının həcmi 160 milyon ABŞ dollarını ötüb", "Milliləşdirmə siyasəti: Əmin addımlarla qarşıdakı hədəfə doğru", "SOCAR xaric ölkələrdəki fəaliyyətini uğurla davam etdirir", "Neft-qaz sənayesinə sərmayə qoyuluşu 100 milyard ABŞ dollarına yaxınlaşır", "SOCAR-ın təsisçiliyi ilə yaradılan müəssisələrin fəaliyyəti neft və qaz sənayesinin əksər sahələrini əhatə edir", "Neft-qaz emalı: keyfiyyət yüksəlir", "STAR" NEZ, Karbamid Zavodu və "SOCAR Polymer": milli sərvətimizə əlavə dəyər", "Strateji inkişaf layihələri gələcək üçün təminatdır", "Xəzər hövzəsindəki yeni yataqlar gələcək perspektivlərdən xəbər verir", "Yenidənqurma və modernizasiya: keyfiyyət göstəriciləri yüksəlir", "Yeni texnologiyalar, yeni əməkdaşlığa açılan imkanlar", "Nəqliyyat sisteminin stimullaşdırılması günün əsas tələblərindəndir", "Neftçilərin mənzil şəraitinin yaxşılaşdırılması sosial məsuliyyətin tərkib hissəsidir", "Yüksək səviyyəli iş şəraiti, uğurlu istehsalat göstəriciləri", "Sağlamlığın təminatı uğurlar üçün əsasdır", "Müasir dövrün tələblərinə cavab verən yüksək ixtisaslı fəhlə kadrlar hazırlanır", "İnsan kapitalının idarə edilməsində beynəlxalq təcrübə", "Neft-qaz sektorunda İKT-nin inkişafı prioitet sahələrdəndir", "Bakı Ali Neft Məktəbi təhsildə yeni rekordlara imza atır", "Qarşıdakı hədəf: ölkə üzrə qazlaşdırma 95 faizə çatdırılmalı", "Ekologiya sahəsində beynəlxalq əməkdaşlıq və qazanılan uğurlar", "Lay suları və tullantıların idarə edilməsi, torpaqların təmizlənməsi, ekoloji monitorinqlər", "Ekologiyanın və təbiətin mühafizəsinə böyük dəstək", "Geoloqların əsas vəzifəsi: yeni sahələri öyrənmək, perspektivliliyi və riskləri qiymətləndirmək və qazmaya hazırlamaq", "Yataqların səmərəli işlənməsi üçün müasir geoloji və hidrodinamik modellərdən istifadə olunur", "İstehsal sahələrinin fasiləsiz istismarı cari və əsaslı təmir tələb edir", "Asudə vaxtın təşkili, aztəminatlı ailələrə dəstək", "Neftin qiymətinin artmasında müsbət dinamikanı şərtləndirən amillər", "Neft məhsullarının ixracı artıb", "SOCAR-ın reytinq proqnozu stabil inkişaf edir", "Əsrin müqaviləsi"ndən başlanan yolun uğurları", "Qazmada tətbiq edilən müasir texnologiyalar, əldə olunan yüksək göstəricilər" sərlövhəli yazılar Neftçilər Günü ilə bağlı son bir ildə görülən işlərin qısa hesabatını və növbəti ilin hədəflərini açıqlayan dəyərli mənbələrdir.

## Professor Oleq Kuznetsov: SSRİ DTK da daşnakları təhlükəli hesab edib

***Sentyabrın 20-də rusiyalı tarixçi və hüquqşünas, professor Oleq Kuznetsov "Ermənistan: Faşizm tüğyan edən ölkə" mövzusunda mətbuat konfransı keçirib. AZƏRTAC xəbər verir ki, rusiyalı tarixçi alim konfransda SSRİ Xalq Daxili İşlər Komissarlığının (XDİK) 1930-cu illərdəki arxivində erməni daşnaklarına aid faktlarla bağlı məlumat verib.***

O.Kuznetsov bildirib ki, 1930-cu illərin əvvəllərində bolşevik Rusiyasında daşnaklara xüsusi rəğbət olub. Məxfi hesabatlarda qeyd olunub ki, daşnaklar özlərini bolşeviklərə ideoloji tərəfdaş kimi göstərməyi bacarıblar. Rusiyalı alimin fikrincə, 1930-cu illərin ortalarında Adolf Hitler Almaniyada iqtidara gəldikdən sonra Daşnak partiyasının liderlərindən olan Qaragen Nijde ABŞ-ın Boston ştatında irqçi təşkilat yaradıb. O.Kuznetsov SSRİ Xalq Daxili İşlər Komissarlığının 1935-ci il arxiv materiallarını konfrans iştirakçılarının diqqətinə çatdıraraq deyib ki, Nijde ermənilərin dünyanın əksər millətlərindən üstün olduğunu bəyan edirmiş. Hətta onun ideologiyasına görə, ermənilər ari irqin nümayəndələri kimi digər xalqları məhv etmə səlahiyyətinə malikdir. Q.Nijdenin bu cür sərsəm fikirlərindən sonra o, ABŞ-dan qovulub.



Məxfi sənədlər əsasında danışan Kuznetsov diqqətə çatdırıb ki, daha sonra qatı erməni millətçisi Almaniyada o zaman faşizmin mərkəzi olan Münxen şəhərində məskunlaşır. Məhz irqçi fikirlərinə görə, 1936-cı ildə Hitler hakimiyyəti tərəfindən himayə olunur. Həmin dövrlərdə faşizmin təbliği ilə bağlı çoxlu sayda məqalənin yazılması barədə faktların SSRİ XDİK-nin arxivlərində yer aldığını deyən rusiyalı qonaq bildirib ki, erməni faşizmi XX əsrin ortalarında tam şəkildə formalaşmışdı.

Oleq Kuznetsovun sözlərinə görə, SSRİ XDİK-i 1930-cu illərin sonlarında artıq bundan narahat olmağa başlayıb. Bu səbəbdən SSRİ-dəki daşnaklara qarşı kütləvi repressiyalar aparılıb. Rusiyalı tarixçinin araşdırmalarına görə, hətta SSRİ təhlükəsizlik orqanları siyahı tərtib edərək daşnakları 3 qrupa bölüb. Bu qruplardan ən təhlükəliləri Daşnaksutyun partiyasının üzvləri, sonra 1921-ci ildə daşnak üsyanında iştirak edən şəxslər və üçüncüsü daşnak ideologiyasına meyil göstərənlər idi.

Tarixçi alim deyib: "DTK-nın İkinci Dünya müharibəsi ilə bağlı arxiv sənədlərindən aydın görmək olur ki, erməni daşnakları həmin dövrlərdə xüsusi qəddarlıqla kütləvi qırğınlar törədiblər. Alman faşistləri ilə birlikdə əsir düşərgələrindəki insanlara işgəncələr verilməsində və sovet ordusuna qarşı döyüş əməliyyatlarında iştirak ediblər". O.Kuznetsov Nijdenin Birinci Dünya müharibəsi illərində də xüsusi vəhşiliklər törətdiyini bildirib. 1912-1913-cü illərdə Balkan müharibəsində bir sıra Avropa ölkələrinin xüsusi xidmət orqanlarının hazırladığı hesabatda Nijdenin Bolqarıstan dövləti ərazisində türk kəndlərində törətdiyi amansız qırğınlar faktlarla göstərilib.

# Koçaryan Paşinyanı niyə və necə təhdid edib?

*Baş nazir isə, eks-prezidenti "siyasi meyit" adlandırsa da, qarşı tərəfin də ittihamları səngimir*

**Ermənistanda cərəyan edən siyasi böhran və bu böhran çərçivəsində baş verən keçmiş və indiki hakimiyyət düşərgələri arasındakı qarşıdurmalar pik həddinə çatıb. Xüsusilə, ölkənin eks-prezidenti Robert Koçaryanın ötən həftə Nikol Paşinyana "barmaq silkələməsi" vəziyyəti daha kritik həddə çatdırıb. Belə ki, eks prezidentin 1 mart hadisələrinə görə ittiham olunması və Paşinyan rejiminin hər vəchlə onun həbsinə nail olmaq cəhdləri Koçaryanın ciddi qəzəbinə səbəb olub.**



Onun və vəkillərinin əlində isə yeni alibi var. Bu alibi isə Ermənistanın təhlükəsizlik və istintaq orqanları rəhbərlərinin onun və 1 mart hadisələrində günahlandırılan digər şəxslər barədə danışdıqları-telefon danışıqlarının ifşa olunmasıdır. Məhz həmin audioyazı üzə çıxdıqdan sonra erməni ictimai rəyi arasında fikirlər haçalanmağa başlayıb.

## Robert Koçaryan: "Paşinyan mənə baş qoşduğuna görə peşman olacaq"

"Robert Koçaryan bəyanatları ilə öz siyasi səviyyəsini, siyasi anlayışının dərəcəsini göstərib". Bu sözləri jurnalistlərlə söhbətində Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin ikinci prezidenti Robert Koçaryanın "Paşinyan mənə baş qoşduğuna görə, peşman olacaq" sözlərinə münasibətini bildirərkən deyib.

Koçaryana cavabında qarşı tərəfi, demək olar ki, ələ salan Paşinyan bu və ya digər şəkildə Ermənistanın ikinci prezidentinin sözlərinə istehzalı münasibət bildirib. O, eks-prezidenti küçədə dalaşan uşaq qismində gördüyünü bildirib və özünü siyasətçi hesab edən şəxsin bu cür fikirlər səsləndirməsini ciddi qəbul etmədiyini bildirib. O cümlədən, Paşinyan Koçaryanı "siyasi meyit" adlandırıb.

## Nikol Paşinyan: "Bu, küçə dava-dalaşı deyil, harada ki, döyülən döyənə "baxarıq, görərsən", təhdidi edir"

"Bu, küçə dava-dalaşı deyil, harada ki, döyülən döyənə "baxarıq, görərsən", təhdidi edir", deyə erməni baş naziri Robert Koçaryanın təhdidinə cavabında həmin ifadələri işlədib. Eyni zamanda, "Ermənistanda daha Robert Koçaryan adlı siyasi faktor mövcud deyil", deyən Paşinyan siyasi meyitlərlə işinin olmadığını da bildirib: "Bizim siyasi meyitlərlə işimiz yoxdur, lakin siyasi meyit olmaq, o demək deyil ki, qanun qarşısındakı cavabdehlikdən yaxa qurtarsın, kim olursa-olsun, bu, hamıya deyilib". Beləliklə, iki düşərgə arasında gedən barışmaz savaşda məcradan çıxan həqarət və təhdidlər get-gedə daha çox vətəndaş qarşıdurması ab-havasını əsdirir. Ermənistan ictimaiyyətinin də, demək olar ki, iki yerə parçalanması, xüsusilə, Qarabağ ermənilərinin Ermənistan ermənilərinin növbəti qarşıdurmalara getmələri daha çox real görünməyə başlayıb.

## Koçaryanın vəkili: "Bu, sadəcə, manipulyasiyadır"

Ermənistanın ikinci prezidenti Robert Koçaryanın vəkili Hayk Alumyan isə keçirdiyi mətbuat konfransında deyib ki, 1 mart işi üzrə ittiham olunan şəxslərin hər hansı bir dəftərdə adlarının qeyd olunması barədə şəxsən o, xəbərsizdir. Belə ki, vəkil bunu Xüsusi İstintaq İdarəsinin (XİI) rəisi Sasun Xaçatryanın iddiasına cavab olaraq bildirib. Məsələ ondadır ki, XİI-nin rəisi 1 mart 2008-ci ildə hərbçilərin muzdlu olaraq, qanlı olaylara cəlb edilmələri ilə bağlı dəftərə malik olduğunu deyib, eyni zamanda, bildirib ki, 23 fevraldan 8 mart tarixinə qədər oliqarxlar həmin hərbçilərə pul ödəyirdilər ki, onları müdafiə etsinlər.

"Mən bilmirəm və bu dəftəri görməmişəm", deyən vəkil əlavə edib: "Təsəvvürünüzə gətirin, mən həmin cinayət işi üzrə müdafiəçiyəm, lakin siz jurnalist olaraq, həmin dəftəri məndən öncə görmüsünüz. Lakin mən həmin dəftəri görsəm, məsələni belə şərh edərdim: əgər bu, cinayətdirsə, əgər Milli Təhlükəsizlik Xidməti ilə Xüsusi Xidmət İdarəsinin rəhbərləri bilirlərsə ki, həmin cinayəti kim işlədib, onda təqdim edilən ittihamnamə hanı? Başqa tərəfdən, əgər bu cinayət sübut olunmayıbsa, nəyə görə olmayan ittihamnaməni ictimailəşdirirlər? Bu, sadəcə, manipulyasiyadır".

## Hayk Alumyan: "Bu hal MTX ilə XİI rəhbərlərinin telefon danışıqlarını insanların diqqətindən yayındırmaq üçün istifadə edilir"

Hayk Alumyana görə, 1 mart hadisələri erməni ictimaiyyəti üçün kifayət qədər həssas və ağrı nöqtəsidir: "Bu hal MTX ilə XİI rəhbərlərinin telefon danışıqlarını insanların diqqətindən yayındırmaq üçün istifadə edilir".

Vəkil qeyd edib ki, məhkəmənin qüvvəyə minmiş hökmü yoxdur, sübutları təsdiq edən sənədlər də yoxdur, eləcə də, ittiham təqdim olunmayıb, lakin XİI-nin rəisi keçirdiyi mətbuat konfransında sənədləri elə göstərir ki, sanki həmin fakt sübuta yetirilib. "Əgər onlar bunun sübuta yetirilmiş fakt olduğunu təsdiq edirlərsə, heç olmasa, kimin ittiham olunduğunu da desinlər", Alumyan bildirib.

Beləliklə, vəziyyət kifayət qədər bəllidir və bu vəziyyətin nə Ermənistana, nə də erməni ictimaiyyətinə heç də yaxşı gələcək vəd etmədiyini göstərir. Hər halda, bütün faktlar və cərəyan edən hadisələr də bu cür qənaətə gəlməyə zəmin yaratmaqdadır.

***Rövşən RƏSULOV***



## Leyla Yunusun maskası və markası

RƏFİQƏ

Bəzən həyatda elə hallar da mövcud olur ki, həmin amillər bir-birləri ilə bənzərlik, oxşarlıq cəhətləri ilə daha çox nəzərə çarpır. Bəzən bu cəhətlərin pis tərəfləri və yaxşı tərəfləri də olur. Lap nağıllarda, əfsanələrdə, hətta real həyatda olduğu kimi. Xeyir və şər. Söz yox ki, şər müəyyən mənada, xeyir üzərində üstünlüklər əldə etsə də, son anda xeyirin qarşısında məğlub olur. Amma təəssüf ki, şər qüvvələr bu dünyada, hələ ki, çoxdur və bu baxımdan xeyirxahlıq amili, ona qarşı mübarizəsini davam etdirir. Ta o vaxta qədər ki, şər xeyirin qarşısında diz çöksün.

Şərə, şeytana, iblisə xidmət edən "hüquq müdafiəçisi" adı altında simasız maskanın markası altında fəaliyyət göstərən şərbaz Leyla Yunus, həm də erməni xidmətçisi kimi tanınır. Azərbaycan dilini, yalnız söyüş vasitəsi kimi gördüyünü, "bu dildə ancaq söyüş söydüyünü" söyləmək tərbiyəsizliyini göstərən bir şəxsi erməni adlandıran cəmiyyətimizi necə qınaya bilərik?! L.Yunus mətbuatda verdiyi açıqlamalarının birində özünün necə xəyanət timsalı olduğunu, bir daha sübut edib. Bildirib ki, 20 ildir ki, deyirlər biz erməniyik: "Mən bu ilin sonuna qədər elə şeylər yazacam ki, bizə, nəinki erməni deyəcəklər, hətta başqa ittihamlar da səsləndirəcəklər". Əslində, bu, heç təəccüb də doğurmur. Belə də olmalı idi... Məgər nə zaman belə olmayıb axı? Bir neçə ay Azərbaycanda üz-gözünü cıraraq, haray-şüvən salmaq, sonra da xaricə gedib, bir müddət orada kef eləmək. Sonradan isə yenidən həmin halı təkrarlamaq. Sual olunur ki, ay şərlər "xatunu" L.Yunus, nəyə görə sən bu ölkədə, heç olmasa, bir il davamlı şəkildə yaşamırsan və ayrı-ayrı zamanlarda səsin, ümumiyyətlə, gəlmir? Cavabı bəllidir - o, qara-qışqırıq salır və sonradan çəkilir kənara və meydanı verir erməni aşnalarına... ki, onlar da Azərbaycana qarşı iddialarını Avropa instansiyalarında qaldırsınlar, ölkəmizə qarşı çirkin planlarını reallaşdırsınlar. B.Leyla Yunus kimi satqın, həyasız və abırsız məxluqun "həyat fəlsəfəsi" maskası və markası.



## Mərkəz sədri: "Paşinyan məntiqsiz adam rolunu ifa edir"

"Paşinyan savadı və məntiqi ilə ATƏT-in Minsk Qrupunu Dağlıq Qarabağ tənzimlənməsindən uzaqlaşdırdı". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Onun sözlərinə görə, Ermənistanın Baş naziri statusunda Nikol Paşinyanın verdiyi hər bir bəyanatı kifayət qədər müəyyənedici xarakterlidir: "Bəlkə də N.Paşinyan savadsız və yaxud məntiqsiz adam rolunu ifa edir. Mümkündür, onun həyat tərzində bunu görmək olar.

Nikol Paşinyanın Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatması ilə bağlı bəyanatları sırf birmənalıdır. Başqa variantda başa düşmək mümkün deyil. O, Ermənistanın baş naziri postunda ən azı 2 dəfə Dağlıq Qarabağı Ermənistanın tərkibində gördüyünü bəyan edib. Sonuncu bəyanatında Dağlıq Qarabağı Ermənistanın tərkibinə qatmağın variantını axtardığını bildirdi. Əslində bu Ermənistanın Nikol Paşinyanın rəhbərlik etdiyi hakimiyyətinin Dağlıq Qarabağın statusunun müəyyən olunmasına müdaxiləsidir. Dağlıq Qarabağın statusunu isə Ermənistan deyil, ATƏT-in Minsk konfransı müəyyən etməlidir. Əgər N.Paşinyan Dağlıq Qarabağın statusunu müəyyənləşdiribsə danışıqlara və beləliklə ATƏT-in Minsk Qrupunun fəaliyyətinə ehtiyac qalmır. Baş nazir Nikol Paşinyan Ermənistanın siyasi elitasının savad və səviyyəsinin barometridir. Məsələnin digər tərəfi də diqqət çəkir: Nikol Paşinyan ATƏT-in Minsk Qrupunun nizamnaməsinə zidd bəyanatlarına ATƏT MQ bu günədək heç bir reaksiya verməyib. Bununla ATƏT-in Minsk Qrupunun həmsədrləri beynəlxalq hüquqa, özlərinin nizamnaməsinə, təmsil etdiyi dövlətlərə hörmətsizlik nümayiş etdirirlər. Əgər ATƏT-in Minsk Qrupu həmsədrləri özünəhörmət hissi ilə tanışdırlarsa, onlar Dağlıq Qarabağ tənzimlənməsindən uzaqlaşmalıdırlar. ATƏT MQ Dağlıq Qarabağ tənzimlənməsində kömək üçün Azərbaycan ordusuna müraciət etməklə özünün imicinin daha ləkələnməsinin qarşısını ala bilər".

## Ermənistanda yenidən aksiya keçirilib



Azərbaycan ordusunun erməni işğalından azad etdiyi Başkənd kəndinin sakinləri Yerevanın mərkəzində aksiya keçiriblər. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, sakinlər mənzil problemlərinin həll olunmaması səbəbindən hökumət binasına hücum ediblər. Gərginliyi azaltmaq üçün baş nazir Nikol Paşinyan etirazçıların qarşısına çıxıb. Keçmiş Başkənd sakinlərinin problemlərinin həlli üçün oktyabrın 2-də müzakirələrin keçiriləcəyi qərara alınıb. Xatırladaq ki, erməni daşnaklarının yuva qurduqları Başkənd 1992-ci il avqustun 8-də Azərbaycan ordusunun hücumundan sonra separatçılardan azad olunub.

# Müharibə müttəfiqsiz Ermənistanın sonu deməkdir

***Ermənistanın parlamenti tərəfindən "Şant - 2018" hərbi təlimləri çərçivəsində Azərbaycana qarşı müharibə elan edilməsi beynəlxalq ictimaiyyətlə yanaşı, ermənilərin özlərini də şoka salıb. Müharibə elan edilməsi Ermənistan ictimaiyyəti arasında müzakirə mövzusuna çevrilib və işğalçı ölkənin kütləvi informasiya vasitələrində bu müzakirələr öz əksini də tapır.***

Ermənistana məxsus "armenianreport.com" saytında ölkələrinin tamamilə müttəfiqsiz və tərəfdaşsız qaldığı etiraf olunur. Daxili siyasi böhran səbəbindən bataqlıqda batmamaq üçün mübarizə apardıqları hazırkı ərəfədə həm Ermənistan, həm də qondarma Artsax üçün Azərbaycanın hərbi təhlükəli olmasını inkar etməyin mümkünsüzlüyü vurğulanır. Qeyd olunur ki, ermənilər üçün ən çox narahatlıq doğuran məqamın isə, məhz müttəfiqsiz qalmalarıdır.

İranın Suriya və daxili problemlərə başının qarışdığını nəzərə çatdıran saytda, eyni zamanda, etiraf edilir ki, Ermənistanın Azərbaycanla müharibə aparacağı təqdirdə, İran onlara öz köməyini göstərə bilməyəcək. Eyni zamanda, o da etiraf edilir ki, rəsmi Bakı və Tehran arasında heç bir əvvəlki fikir ayrılığı belə qalmayıb. Əvəzində isə, İran və Azərbaycan arasında mövcud və gələcək layihələr ermənilərin arzu etmədiyi bir sürətlə artır. Bütün bu səbəblərin İranın Azərbaycanla müttəfiq olduğunu təsdiq etməsə belə, Ermənistanla müttəfiq olmaması anlamına gəldiyini yazan sayt İranın da müttəfiq olmadığını aydın şəkildə etiraf edir.

Qonşu Gürcüstanla münasibətlərə toxunan sözügedən saytda etiraf olunur ki, yeni hakimiyyət bu qonşu dövlətlə münasibətlərin gələcək perspektivlərindən dəm vursa da, Gürcüstanın Azərbaycanla sıx əməkdaşlıqları var. Gürcülərin Bakıdan neft, qaz aldıqları və nəqliyyat layihələrindən qazanc əldə etdikləri da ön plana çəkilir. Bu əməkdaşlıqların, müqavilələrin fonunda isə, heç bir erməni Paşinyanın və onun hakimiyyətinin sözlərinə inanmır və Gürcüstanın da Ermənistanla deyil, Azərbaycanla müttəfiq olduğu nəzərə çatdırılır.



"Armenianreport.com" saytı Türkiyədən danışmağın belə lüzumsuz olduğunu yazır və xüsusilə, qeyd edir ki, Türkiyə Prezidenti Bakıya o qədər teztez və mütəmadi olaraq, gəlir ki, elə bil, o öz evinə gəlir. Bu ölkələr arasında siyasi və iqtisadi əlaqələrin günü-gündən artdığını, möhkəmləndiyini diqqətə çatdıran sayt, rəsmi Ankaranın Bakıya hərtərəfli hərbi dəstək verəcəyini bildirməkdən çəkinmədiyini də önə çəkir və şərti düşmənə, yəni məhz işğalçı ölkəyə qarşı Azərbaycanla birgə hərbi təlimlər keçirməsini, xüsusilə, nəzərə çatdırır. Bununla da, Türkiyənin, əsla, onlarla deyil, Azərbaycanla, nəinki müttəfiq, hətta dost və qardaş ölkə olduğunu vurğulayır.

Ermənistana məxsus bu sayt Rusiya ilə münasibətlərdə də özlərinə qarşı təhlükəli katastrofik dönüş olduğundan təəssüf hissi keçirir. Moskva və Bakının aktiv əməkdaşlığına diqqəti cəlb edir. Ələlxüsus, hərbi əməkdaşlığından narahatçılığını da gizlətmir. Həmin "armenianreport.com" saytı Rusiyanın Azərbaycanı bundan sonra da silahlarla təmin edəcəyindən narahatlıq keçirdiyini açıq-aşkar büruzə verir. Hətta Putinin 25 sentyabr tarixində Bakıya rəsmi səfərindən qıcıqlanma da müşahidə olunur və görünür ki, ermənilər rusları, bir zamankı müttəfiq kimi, itirdiklərindən çox peşimandırlar və dərk edirlər ki, artıq Rusiya bu işğalçı dövlətin müttəfiqi və tərəfdaşı sayıla bilməz.

ABŞ və Avropa ilə münasibətlərə gəlincə, sözügedən saytda yazılır ki, demokratiya uğrunda mübarizə layihələrinin, vədlərinin əbəs olduğu göz qabağındadır və bu ölkələr Ermənistanın arxasında durmaq və tərəfini saxlamaq fikrində belə deyillər. Trampın Paşinyanla görüşdən imtina etməsi isə erməniləri tamailə sarsıdıb. Hətta Azərbaycana təzyiqlər əvəzinə, rusların münasibətlərini daha da genişləndirdiklərindən ermənilər narahat olublar. İsrailin Azərbaycana özünün ən müasir silahlarını satdığından narahatlığını gizlətməyən erməni saytı, həmin ölkənin müdafiə naziri Aviqdor Libermanın Azərbaycana səfərini, Şəhidlər Xiyabanını, Qarabağ uğrunda şəhid olmuş yəhudi əsilli Azərbaycan Milli Qəhrəmanı Albert Aqarunovun məzarını ziyarət etməsini siyasi jest adlandırmaqdan da çəkinmir.

Göründüyü kimi, "armenianreport.com" saytının timsalında Ermənistanın kütləvi informasi vasitələri işğalçı dövlətin meydanda tək, müttəfiqsiz qaldığını etiraf edirlər. Hətta bir zamanlar müttəfiq hesab etdikləri ölkələrdən, tərəfdaşlardan da əllərinin üzüldüyünü qəbul edirlər. Belə bir vəziyyətdə, yeni təklənmiş halda Azərbaycana, özü də müttəfiqləri durmadan artan bir ölkəyə müharibə elan edilməsini erməni KİVləri Ermənistanın ağılsız addımı kimi dəyərləndirirlər. Ümumiyyətlə, nəinki erməni mediası, ümumilikdə, Ermənistan cəmiyyəti belə Paşinyanın, onun rəhbərliyi ilə yeni hakimiyyətin bu sərsəmliyini heç çür başa düşə bilmir.

***İnam HACIYEV***

# Erməni mətbuatı Nikol Paşinyanın yanlış kadr siyasətindən yazır

## *"Hraparak" qəzeti: "Parlamentdə yaradılmış istintaq komissiyası səriştəsiz respublika prokurorluğunun funksiyasını icra edəcək"*

***Ermənistanın "Hraparak" qəzetinin yazdığına görə, parlamentdə yaradılmış İstintaq Komissiyası Milli Təhlükəsizlik Xidmətinin direktoru ilə Xüsusi İstintaq İdarəsinin rəisi arasındakı telefon danışığına gizli qulaq asılması ilə bağlı məsələni araşdıracaq və bu komissiyaya rəhbərliyi eks-prokuror Gevork Kostanyan edəcək.***

Qeyd edək ki, Kostanyan Serj Sarkisyan iqtidarında Ermənistanın baş prokuroru vəzifəsinə təyin olunmuşdu. Erməni nəşri yazır ki, parlamentdə komissiya sədrini fraksiya irəli sürür və ən çox səs sayı, məhz komissiyada olur. Kostanyan isə Respublika Partiyasının təmsilçisidir. Bildirilir ki, komissiyanın istənilən vəzifəli şəxsdən, hətta baş nazirdən hesabat istəmək tələb etmək hüququ var. Eyni zamanda, komissiya müəyyən prosedurların təmin olunması üçün istintaq sirlərinə müdaxilə edə bilər. Ümumiyyətlə, parlamentdə yaradılmış istintaq komissiyası səriştəsiz respublika prokurorluğunun funksiyasını icra edəcək.

"Yəni bu komissiya Ermənistan prokurorluğu ilə yanaşı, prokurorluq roluna malikdir" deyə yazan erməni nəşri həmin komissiyanın yaradılmasını ölkə prokurorluğunun zəif fəaliyyəti ilə əlaqələndirib. Həmçinin, eyham vurulub ki, yaxın günlərdə Ermənistanın baş prokuroruna qarşı rəsmi etimadsızlıq elan ediləcək. "Komissiya beynəlxalq kriteriyalar çərçivəsində faktların toplanması missiyasını həyata keçirəcək və ciddi əsasları təmin edəcək" deyə "Hraparak" yazır.

### "İrates" qəzeti: "Xüsusi İstintaq İdarəsinin rəisi öz vəzifəsi ilə vidalaşmalı olacaq"

Digər erməni nəşri - "İrates" isə yazır: "Xüsusi İstintaq İdarəsinin rəisi öz vəzifəsi ilə vidalaşmalı olacaq". Bu qəzet də Ermənistanın baş prokuroruna qarşı etimadsızlığın elan ediləcəyini qeyd edib. Eyni zamanda, elm və təhsil naziri Araik Arutunyanın da istefaya göndəriləcəyi bildirilir.

Qeyd edək ki, Araik Arutunyan Nikol Paşinyanın ingilis dili müəllimesi olub və onun nazir vəzifəsinə təyin olunması ölkə ictimaiyyətində birmənalı qarşılanmamışdı. Eyni zamanda, idarəçilik qabiliyyətinə malik olmayan elm və təhsil naziri ard-arda ciddi səhvlərə yol verərək, etimadını itirib. "Bizdə olan




məlumatlara görə, Araik Arutunyan Yerevan Dövlət Universitetinə rektor təyin olunacaq" deyə yazan qəzet nazir postuna onun müavini olmuş Ovannes Ovannisyan yerləşdiriləcək".

Bütün bu kimi hadisələr isə, belə deməyə əsas verir ki, Nikol Paşinyan, nəinki öz vəzifəsinin öhdəsindən gələ bilmir, eyni zamanda, onun etimad göstərdiyi küçədən gəlmiş nazirlər də fəaliyyətlərində heç bir müsbət irəliləyişlərə nail ola bilmirlər. Buna isə Paşinyanın kadr siyasətinin tamamilə yanlış məcrada tətbiq etdiyini demək olar. Daha doğrusu, siyasi və diplomatik və s. müvafiq liderlik komponentlərinə malik olmayan Nikol və onun "məxməri inqilabı" süquta uğramaqdadır.

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

# Paşinyan: hökumət başqanı, yoxsa...

***Mənim az-çox savadım da var, həyat təcrübəm də. Uzun müddət dövlət qurumlarında rəhbər vəzifələrdə də çalışmışam. Yəni dövlətçilik, dövlət idarəçiliyi deyilən anlayışdan məlumatlıyam. Dünyada gedən ictimai siyasi prosesləri də izləyirəm, analiz edirəm, özümə, öz səviyyəmə görə baş verənlərə qiymət də verməyi bacarıram. Amma Paşinyan deyilən bu zatsız millətin zatsız liderini heç cür anlaya bilmirəm. Niyəsini deyim, siz də bilin.***

İndi Ermənistan adlanan, özünü utanmaz-utanmaz dövlət adlandıran bu məmləkətin tarixi Azərbaycan ərazisində, ağalarının dəstəyi ilə süni şəkildə formalaşdırıldığı bu gün təkcə bizə deyil, bütün dünyaya bəllidir. Həm də bunu onları yox yerdən dövlət yapan Rusiyanın görkəmli simaları son vaxtlar açıq-açığına söyləyirlər. Yəni dövlətçilik tarixi, siyasi-idarəetmə ənənəsi olmayan zatsız bir qurumu zorla dövlət adlandırıb, süni yolla dünya birliyinə soxublar. Burası da sirr deyil ki, hayqaraçı tayfaları bu yerlərə XV əsrdən sonra, ayaq basıblar və XVII əsrdən başlayaraq, dövlət qurmaq iddiasına düşüblər. Nə isə, məqsədim tarixi-hayestan açmaq deyil. Sadəcə, deyəcəklərimin aydın olması üçün bunları xatırlatmağa lüzum gördüm. İndiki dünyada mövcud olan dövlətlər iki cəhətdən fərqlənirlər. Gerçək müstəqil siyasət yürüdənlər, bir də kiminsə, və ya kimlərinsə kölgəsinə sığınıb yaşayanlar. Nə xoş bizlərə ki, dünyamızda bu gün mövcud olan az sayda gerçək müstəqil siyasəti ilə tanınan ölkələrdən birinin - MÜSTƏQİL AZƏRBAYCANın vətəndaşlarıyıq. Bəs Ermənistan adlanan bu qondarma dövlətin siyasətini necə dəyərləndirək? Müstəqil olmadığı məlumdur. Bundan keçdik. Müstəqil deyilsə, deməli, kimə və ya kimlərəsə sığınıb. Bu gün dünyada çoxlu sayda dövlət var ki, onlar özlərini idarə edə bilmir və hansısa güclü dövlətin qoltuğuna sığınıb, birtəhər varlığını saxlayır. Son illərə qədər hər kəs düşünürdü və ermənilər özləri də etiraf edirdilər ki, onlar Rusiyaya sığınıblar və Rusiyanın for-postu, yəni öz dilimizdə desək, vassalıdırlar. Amma indi baxıb görürsən ki, yox atam, onlar təkcə Rusiyanın vassalı deyillər. Onlar kim, əl tutsa, ona qulluq etməyə hazır olan, hər cür idarəçilik formasından məhrum tayfadan başqa bir şey deyillər. Elə erməni axçıləri kimi. Kim pul verirsə, onun malı olurlar (Oxucularımdan üzr istəyirəm, amma bu zatı olmayan tayfanın kimliyini anlamaq üçün başqa epitet tapa bilmədim). Heç kəsə sirr deyil ki, Paşinyanı baş nazir kreslosuna gətirən Qərbdir və Rusiyanın rizası olmadan baş verib bu olay. Yaxşı, səni dövlət eliyən, saxta tarixinizə dəstək verib dünyaya qədim bir xalq kimi tanıdan Rusiyadan imtina edirsən et, Qərbin vassalı olmağa qərar verirsən ver, onda indiki oyunların adını nə qoyaq? Bir gün Rusiyaya meydan oxuyursan, o biri gün Rusiyanı erməni xalqının(?) xilaskarı adlandırırsan. Həm milyonlarla rusun qanını axıdan, Hitlerin sağ əli olan Njdenin heykəlini ucaldırsan, həm də Rusiya ilə birgə hərbi blokda varsan. Bax, bütün bunları izlədikcə, düşünməyə məcbur olursan ki, bu qondarma dövlətin indiki dünyada sərgilədiyi mövqe, görəsən, nədən ibarətdir? Müstəqil siyasəti yoxdur, heç olmazsa, birinin vassalı kimi yaşasa, bunu da qəbul etmək olardı. Amma o da deyil. Elə isə Ermənistan dövləti nədir? Mənim gəldiyim qənaət budur: bu dövlət axçılərin dövlətidir. Yəni kim pulunu verirsə, onun malı olur. Və deməli, dünənədək Koçaryan, Sarkisyan, bu gün isə Paşinyan mədəni dildə insan alverçiləri, xalq arasında isə "b...a" kimi adlandırılanlardan başqa, bir şey deyil. Beləsinin dediklərinə və verdiyi bəyanatlara ciddi yanaşmağa da dəyməz. Axçılərin başqanından bundan artığını gözləməyə də dəyməz.

TƏRS BAXIŞ

# Cəmil Həsənlinin "Milli Şura"dan uzaqlaşdırılması an məsələsidir

*Əli Kərimli sədr postunu ələ keçirməkdə iddialıdır*

***Siyasi düşərgədə heç bir nüfuzu olmayan və fəaliyyətsizliyi ilə "ölü qurum" adını qazanan "Milli Şura"da daxili gərginlik artmaqdadır. Artıq uzun müddətdir ki, aralarında ciddi fikir ayrılıqları yaşanan qurumun sədri Cəmil Həsənli ilə AXCP sədri Əli Kərimlinin çox yaxın zamanlarda münasibətlərinə son qoyulacağı barədə söz-söhbətlər gəzməyə başlayıb. Buna səbəb kimi, C.Həsənlinin artıq bir neçə dəfə öz çıxışlarında "Milli Şura"nın, daha dəqiq desək, AXCP-nin siyasi görüşündən kənar kontekstlərdə fikirlər yürütməsidir ki, həmin fikirlər də, məhz Ə.Kərimlinin maraqlarına cavab verməməyir. Çünki "Milli Şura"nın, bilavasitə AXCP-nin satelliti, yaxud marioneti olması kimsəyə sirr deyil. O cümlədən, "Milli Şura"nın idarəçilik nüvəsinin, bilavasitə Ə.Kərimlinin əlində olması da bəllidir.***



## Cəmil Həsənli Əli Kərimlinin planlarından məlumatlıdır

Digər maraqlı məqam C.Həsənlinin Ə.Kərimlinin məkrli planlarından məlumatlı olmasıdır. Belə ki, artıq "Milli Şura"da ikitirəlik yaranıb və bu qurumda iki hissəyə parçalanmış tərəflər Həsənli-Kərimli cəbhələrinə bölünüblər. Quruma yaxınlığı ilə seçilən mənbədən aldığımız xəbərə görə, C.Həsənlinin yanında olanlar, əsasən, yaşlı nəslin nümayəndələridir. Misal üçün, VAMP sədri Hacıbaba Əzimov keçirilən bütün iclaslarda C.Həsənlinin mövqeyini müdafiə edir. Ə.Kərimlinin isə, yanında olanlar, əsasən, onun mövqeyini müdafiə edənlərdir ki, məhz AXCP sədrinin tapşırığına əsasən, sosial şəbəkələrdə zaman-zaman C.Həsənli qruplaşmasına qarşı çıxışlar edirlər.

## "Milli Şura" sədrinin "REAL" sədrinə dəstək göstərməsi AXCP sədrini qıcıqlandırıb

Yeri gəlmişkən, Həsənli ilə Kərimli arasındakı qarşıdurmaya daha bir səbəb "Milli Şura" sədrinin "REAL" partiyasının sədri İlqar Məmmədovu "perspektivli müxalifət lideri" adlandırması olub. Halbuki AXCP sədri hal-hazırda özünə ən böyük maneəni İ.Məmmədovda görməkdədir. Ə.Kərimlinin İ.Məmmədovu, həbsdən çıxar-çıxmaz, hətta həbsdə olduğu müddətdə belə, tənqid etməsi, özünü isə müxalifətin "vahid lideri" kimi təqdim etməsi deyilənləri kifayət qədər təsdiq etmiş olur. Ona görə də, C.Həsənlinin İ.Məmmədov barədə müsbət yönlü fikirlərini açıqlaması Ə.Kərimliyə "soyuq düş" effektini verib.

Növbəti bir səbəb isə, mitinqlərin keçirilməsi ilə əlaqəlidir. Belə ki, bu məsələdə də sözləri çəp gələn iki sədr - Ə.Kərimli və C.Həsənli fərqli mövqelərdən çıxış edirlər. Kərimli mitinqlərə start verilməsinin, Həsənli isə mitinqlərin heç bir effekt vermədiyinə görə, start verilməməsinin tərəfdarıdır. Görünür, mitinqlərin effektsizliyi ilə bağlı İ.Məmmədovla eyni düşüncəyə malik olan C.Həsənlinin bu addımı da qarşıdurmanı kəskin həddə qədər artırmaqdadır.

## Çoxluq Cəmil Həsənlini çıxdaş edəcək

Mənbə, həmçinin, onu da qeyd edib ki, yaxın günlərdə "Milli Şura"nın koordinasiya şurasının iclası keçiriləcək və orada C.Həsənlinin "Milli Şura"ya sədriyi məsələsinə yenidən baxılacaq və çox ehtimal ki, "şura"nın əsas çoxluğunun AXCP sədrinə dəstək verdiyini nəzərə alsaq, Həsənli öz postu ilə vidalaşmalı olacaq.

Sədr olaraq isə, "Milli Şura"ya AXCP-nin sədri Ə.Kərimli seçiləcək ki, bu da qurumdaxili intriqaların qızışması ilə nəticəsini tapacaq. Hər halda, "Milli Şura"dakı vəziyyət kritik nöqtəyə qədər inkişaf edib və bu siyasi mövsümdə həmin faktor özünü artıqlaması ilə sübut edəcək.

*Rövşən RƏSULOV*

# Məkrli niyyətlərin yolçuları

*Və ya köhnəlmiş siyasi baxışlar, ucuz təfəkkürlər*

***Hər bir sahədə, cari ildən növbəti ilə qədəm qoyarkən, çalışırsan ki, ötən ildən daha uğurlu işlər görəsən. Ancaq Azərbaycanın müxalifəti 25 ilə yaxındır ki, nə siyasi baxışları, nə də təfəkkürləri dəyişib. Bu təfəkkürlə də dağıdıcı müxalifət düşərgəsində təmsil olan partiya sədrlərinin də təfəkkürləri dəyişməyib.***

Bunun da səbəbi "liderlər" arasında yaşanan kəskin ziddiyyətlərdir. Özlərini ənənəvi müxalifət kimi qələmə verən siyasi partiya "liderləri" də, yaxşı bilirlər ki, 25 ildə heç bir uğura imza ata bilməməyin sonu siyasi arenanı tərk etməklə nəticələnir. Bu fakt, əslində, beynəlxalq siyasi təcrübədə də mövcuddur. Siyasətdə ciddi irəliləyişlərə nail ola bilməmək amili, həm də o anlamı verməkdədir ki, həmin fərdlər idarəçilik qabiliyyətinə malik deyillər. Azərbaycanın ənənəvi müxalifət "liderləri" həmin sınaqdan keçməyə cürət etmirlər. Çünki bilirlər ki, bundan sonra 25 il keçsə belə, onların köhnəlmiş siyasi baxışlarında və ucuz təfəkkürlərində heç bir yenilik olmayacaq.



## Məkrli niyyətlərin yolçuları

Hər seçkilərdə dağıdıcı müxalifət "liderlər"inin məğlubiyyətləri onlara sifarişlər verən anti-Azərbaycan meyilli xarici dairələrin maraqlarına uyğundur. Yəni bu maraqlar ortaq məxrəcdə kəsişir. Belə ki, məğlub tərəf - AXCP sədri Əli Kərimli-Müsavat başqanı Arif Hacılı cütlüyü bütün seçkilərdən dərhal sonra guya həmin seçkilərin anti-demokratik keçirildiyini iddia edir və bir-birilərini elə təhqir edirlər. Çünki onlara sifarişlər verən xarici dairələr - ("Freedom House", "Amnesty İnternationale" və s. - R.H.) məkrli niyyətlərini yerinə yetirənlər qrantla təmin olunurlar.

## Dağıdıcı müxalifətin "şap-şup" oyunu

Bu gün dağıdıcı müxalifət düşərgəsində, həqiqətən də, "şap-şup" oyunu gedir. Belə ki, Müsavat başqanı AXCP sədri Ə.Kərimlinin fəaliyyətinin ancaq düşmənçilik istiqamətində olduğunu bildirir: "Ə.Kərimli öz düşmənçilik mövqeyini bütün fəaliyyəti böyu nümayiş etdirib. Bu, müttəfiqlik münasibəti deyil. Bu, adi düşmənçilik də yox, qəti düşmənçilik münasibətidir."

Eks-spiker Rəsul Quliyevin daha sərt formada danışması isə, yuxarıda qeyd olunan bütün fikirləri təsdiqləyir: "İ.Qəmbər və Ə.Kərimlinin seçkilərdə qalib gəlmək potensialları sıfır dərəcəsindədir. Bu insanların hansı məqsədə qulluq etdiklərini özlərindən başqa heç kim bilmir. Çünki normal ağıl sahibi deyillər və belə ağıl sahibləri normal məntiqlə iş görmürlər".

Göründüyü kimi, artıq bu kimi amillərin arxasında, təbii ki, bir sübut dayanıb - siyasi hadisələr fonunda siyasi dividend artırmaq və bu yolda istənilən qarşıdurmalara getmək. Çünki ortada xalq deyil, şəxsi mənfəət güdmək məsələsi dayanıb. Belə müxalifət məhvə məhkumdur.

*Rəfiqə HÜSEYNOVA*

# "Nar" İsmayıllıda 4G şəbəkəsini qurdu

Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksək keyfiyyətli 4G şəbəkəsini bölgələrdə sürətlə artırmağa davam edir. 4G şəbəkəsinin istismara verildiyi növbəti region İsmayıllı oldu. Bununla da İsmayıllıda 2G, 3G, 4G baza stansiyalarının ümumi sayı 68-ə çatdı. Nəticədə İsmayıllı sakinləri keyfiyyətli və yüksək sürətli mobil rabitə xidmətləri ilə təmin edilir.

Hazırda "Nar" 4G şəbəkəsinin əhatə dairəsini bütün Azərbaycan boyunca sürətlə genişləndirir və ölkədə ən geniş 4G şəbəkələrindən birinə malikdir. Bölgələrə xüsusi diqqətilə seçilən mobil operator, 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim edir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 37 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. Hazırda ölkə ərazisində 1326 sayda 4G, 2645 sayda isə 3G baza stansiyaları fəaliyyətdədir. Bununla da "Nar" abunəçilərinin böyük bir qismi yüksəksürətli internetə çıxış əldə edib. 4G keyfiyyəti ilə yanaşı "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Növbərti qarşıdurma - bu dəfə "REAL" və ADP kontekstində



***ADP sədri Sərdar Cəlaloğlu son günlər "REAL"ın rəhbəri İlqar Məmmədovun özünü müxalifətin "lideri olaraq" hakimiyyətə gələcəyi ilə bağlı fikirlərinə sərt tənqidi sözlərlə münasibət bildirib: "İlqar Məmmədovun liderlik etməyə nə əqli potensialı var, nə də xarakteri... İlqar Məmmədov Azərbaycan siyasətində tutulmazdan əvvəl də, o qədər də parlaq liderlik ortaya qoymayıb və bu gün də ola bilməz" deyə S.Cəlaloğlu bildirib.***

ADP sədri İ.Məmmədovun döymədiyi qapı olmayıb ki, getsin, istəyi isə boş olub: "O, uzun müddət Etibar Məmmədovun katiblərindən biri olub. O qədər də tanınmış katib olmayıb. Siyasətdən uzaqlaşıb, Amerika səfirliyinə işə, gedəndən sonra yenidən deputatlığa namizəd kimi siyasətə qayıdıb. Səfirliyin yardımı ilə Amerikada təhsil alan tələbələrdən ibarət "REAL" təşkilatını yaradıb. Bu baxımdan, İ.Məmmədovun təşkilatçı olması, "lider" olması ilə bağlı fikirləri mifdən başqa bir şey deyil. O, həbsxanada olduğu zaman da, indi də özünü xəyalında "lider" hesab edir. Qaldı ki "müxaliəti yeniləşdirməsinə", ataların sözünü səsləndirmək lap yerinə düşər: "özünə umac ova bilmir, başqasına əriştə kəsir". Bu adam guya müxalifətin lideridir, ona görə həbsxanada saxlanılır. Bu adam həbsxanada olarkən, bildirirdi ki, "lider" olduğuna görə də, həbsxanadadır. Yanlış fikirdir. İ.Məmmədovdan daha çox həbsxanada qalan İsgəndər Həmidov, Pənah Hüseynov da var idi.

S.Cəlaloğlu "REAL"ın, nəinki hakimiyyətə qarşı, hətta Azərbaycandakı ən zəif partiyaya belə alternativ olmadığını bildirib. Onu da vurğulayıb ki, bu cür anormal fikirləri ilə İ.Məmmədov dünyadan və siyasətdən bixəbər olduğunu, bir daha göstərdi. Onun siyasətlə məşğul olması, sadəcə, vaxt itkisidir.

## Natiq Cəfərli: "Sərdar Cəlaloğlu Azərbaycan siyasətində ən qeyri-ciddi siyasətçilərdən biridir"

ADP sədrinin dedikləri qalmaqala səbəb olub. Sosial şəbəkələrdə "REAL" tərəfdarları ADP sədrinin ünvanına ən sərt tənqidlər dilə gətiriblər. "REAL"ın icraçı katibi Natiq Cəfərli ADP sədrinə sərt cavab verib: "Sərdar Cəlaloğlu Azərbaycan siyasətində ən qeyri-ciddi siyasətçilərdən biridir. Onun bu günə qədər səsləndirdiyi fikirlər və tezislər çox zaman gülüş doğurur. Bu baxımdan, açığı, ona ciddi cavab verməyə çox çətinlik çəkirəm. Səsləndirdiyi ittihamlara bağlı, əlində sübutlar varsa, ortaya qoysun".

*Rəfiqə HÜSEYNOVA*

# İnsan haqlarına dair tarixi baxışlar və konsepsiyalar

***Məlum olduğu kimi, insan və onun hüquqları haqqında müasir elmi təsəvvürlər 300-400 il bundan əvvəl formalaşmağa başlamışdır.***

L.İsgəndərova yazır: “Belə bir fəlsəfi aksiom mövcuddur ki, fəlsəfi kateqoriya olmaq etibarı ilə, məhz “insan” çıxış edir. Bu, elə bir anlayışdır ki, o, ağıllı varlığı digər təbii hadisələrdən əsaslı şəkildə fərqləndirir. Lakin insan ağıllı varlıq olmaqla yanaşı, həm də bir şəxsiyyət kimi, yalnız özünəməxsus və alternativi olmayan keyfiyyət və xassələrin daşıyıcısıdır. Bunu insanın təbii hüquq və azadlıqları ilə bağlı da söyləmək olar. Belə ki, hüququn da tarixi bu vaxta qədər hüquq elmi tərəfindən dürüst dəqiqləşdirilməmişdir.

Mövcud təbii hüquq nəzəriyyəsinə uyğun olaraq, insanın təbii hüquqları onun doğulması ilə yaranır və ölümü ilə xitam olunurlar. Əgər belədirsə, deməli, ibtidai insan da müəyyən hüquqların daşıyıcısı olmuşdur. Lakin elmə məlum olduğu kimi, ibtidai insan cəmiyyəti hüquq (və nə də dövlət) tanımırdı. Fikrimizcə, bu mənada, insan hüquq və azadlıqları deyil, bunların müdafiəsi haqqında danışmaq daha məqsədəuyğun olardı. Yəni insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı problemin araşdırılması məsələyə nisbətən aydınlıq gətirərdi. Məhz müdafiə tarixinin ətraflı öyrənilməsi insan və insan hüquqları, azadlıqları haqqında təqribi də olsa, müəyyən nəticənin əldə olunmasına kömək edərdi”.

İnsan haqqında müxtəlif konsepsiyalar irəli sürülmüşdür. Antik fəlsəfi fikirdə insana, əsasən, kosmosun bir hissəsi kimi yanaşılmış, özünün bəşəri təzahürlərində ən ali başlanğıc hesab olunan taleyin hökmünə tabeliyi təsdiq edilmişdir. Məsələn, Sokrat deyirdi ki, “fəlsəfənin başlıca məqsədi insanın mahiyyətini dərk etməkdən ibarətdir. Nə qədər ki, insan öz mahiyyətini dərk etməyib, o, yerdə qalan dünyanı da dərk edə bilməz. Tanrı, nəinki insan bədəninin qayğısını çəkib, daha vacibi budur ki, o, insanın bu bədəninə gözəl ruh bəxş etmişdir”.

Sokrat əsas diqqəti insanın daxili həyatına yönəltmişdir. Onun fikrincə, müdriklərin məşğul olduğu ali fəaliyyət səviyyəsi insanı öyrənməklə əlaqədar olmalıdır. Sokratı, insanın mahiyyəti nədir, onun təbiəti və sonuncu reallığının nə ilə bağlı olması sualları maraqlandırırdı. O, insan anlayışını mənəviyyat səviyyəsinə, ruh haqqındakı təlim səviyyəsinə qədər məhdudlaşdırıldığına baxmayaraq (“insan - ruhdur” və “ruh - insandır”), tam əsasla təsdiq etmək olar ki, Sokratın ideyaları insanın mahiyyətinin sonrakı tədqiqinə güclü təsir göstərmişdir.

Daha yüksək səviyyədə insan antik mütəfəkkirlər Platon və Aristotel tərəfindən öyrənilmişdir. İnsanın mahiyyəti haqqında bu mütəfəkkirlərin irəli sürdüyü ideyalar insan haqqındakı sonrakı təsəvvürlərin formalaşmasında müstəsna rol oynamışdır.

Platonun insan haqqında təlimi iki postulata əsaslanır. Birinci postulat onun ümumfəlsəfi konsepsiyasından irəli gəlir. Həmin konsepsiyaya uyğun olaraq, insan yaratmamalı, artıq ideyalar dünyasında onları təcəssüm etdirməlidir. İnsan yalnız mövcud ideyaları seçməkdə azaddır. İkincisi, Platonun fikrincə, insanın mahiyyəti onun ruhudur, onun bədəni isə ruha düşmən olan materiya kimi çıxış edir. İnsan gerçəklikdə, elə bil ki, iki qeyri-bərabər hissəyə bölünür:

1) yuxarı (ali) hissə - ruh;
2) aşağı hissə - bədən.

Platondan fərqli olaraq, Aristotel insanı bir-biri ilə sıx əlaqədə olan bədənin və ruhun vəhdəti kimi təsəvvür edirdi. Onun fikrincə, bədənin ruhdan asılı olmasına baxmayaraq, nə bədən, nə də ruh bir-birindən təcrid olunmuş halda mövcud ola bilməz. Filosof göstərirdi ki, dövlət təbii varlığa, yəni insana məxsusdur və “insan təbiəti etibarilə siyasi varlıqdır, kimsə təsadüfi şərait üzündən deyil, öz təbiəti üzündən dövlətdən kənarda yaşayırsa, o, ya əxlaqi və mənəviyyatı inkişaf etməmiş varlıqdır, ya da fövqəl- bəşərdir; belə insan öz təbiətinə görə yalnız savaş hərisidir; onu şahmat taxtası üzərindəki təcrid olunmuş piyada ilə müqayisə etmək olar”.

Aristotelin məntiqinə görə, yalnız insan xeyir və şər, ədalət və ədalətsizlik anlayışlarını qavramağa qadirdir. Bunların hamısı birlikdə ailənin və dövlətin təməlini yaradır. Təcrid olunmuş insan sərbəst varlıq ola bilməz. Deməli, təcrid olunmuş insanın hüquq və azadlıqları haqqında danışmaq da qeyri-mümkündür.

Ardıcıl olmasa da, Aristotel insana təbii inkişafın məhsulu qismində yanaşmışdır. O, belə hesab edirdi ki, insan bütün hallarda fərddən irəlidə durmalıdır. Çünki tam həmişə hissələrdən əvvəldə gəlməlidir. Deməli, bu məntiqə uyğun olaraq, belə nəticəyə gəlmək olar ki, insan tamdan, fərd isə onun müəyyən bir hissəsindən ibarətdir. Aristotelin insana münasibətdə baxışlarını səciyyələndirərkən, bu qənaətə gəlmək olur ki, qədim dünyanın filosofu, ilk dəfə olaraq, insanın mahiyyətini sosial amillərlə əlaqələndirmişdir.

Ə.Abbasov qeyd edir ki, insan haqları öz-özlüyündə elə mürəkkəb bir fenomendir ki, onun mahiyyətini və məzmununu dərk etmək üçün bu hüquqların sosial fəlsəfənin metanəzəri, inteqrativ gücü və imkanlarından istifadə etməklə araşdırılması gərəkdir. Bu, bir tərəfdən, sosial fəlsəfənin köməyi ilə insan hüquqlarının mahiyyətinin hərtərəfli aydınlaşdırılmasına, digər tərəfdən isə, insan hüquqlarının ictimai praktikada yetərincə həyata keçirilməsinə yardım edə bilər. Bir ideya, universal prinsip, həyat fəlsəfəsi və ictimai praktika kimi zəngin sosial-siyasi, mədəni, dini, iqtisadi, əxlaqi-mənəvi və hüquqi təməllərə malik insan hüquqları fəlsəfənin metanəzəri-inteqrativ gücü və instrumental-kateqorial aparatı ilə daha rasional şəkildə öyrənilə bilər. Belə ki, insanın varlığı, onun təbiəti, mövcud olduğu cəmiyyət və buradakı münasibətlər haqqında ən təfsilatlı biliklərə fəlsəfə sahibdir. Digər tərəfdən, insan fenomeni ilə əlaqədar ayrı-ayrı elm sahələrində əldə olunmuş biliklərin ümumiləşdirilməsi üçün fəlsəfə ən münasib “vasitədir”.

İnsan haqlarının fəlsəfi-siyasi mahiyyətini insan varlığının bünövrəsini təşkil edən fərdi azadlığa nail olmaqdan, şəxsiyyətin özünüifadə, yaradıcılıq və təşəbbüskarlıq qabiliyyətlərinin, imkanlarının inkişafına, ümumiyyətlə, cəmiyyətin yaradıcı mənbələrinin reallaşmasına üstünlük verməkdən ibarətdir. İnsan haqlarının həm insanla, həm insanlığı şərtləndirən amillərlə bağlılığı bu haqların insan və insanlıqla əlaqədar olan sosial-siyasi, iqtisadi, mənəvi-psixoioji təməllərə dayanan hüquqi təzahürlərlə, eləcə də, insanın əxlaq ölçüləri çərçivəsində.

İnsan haqlarına dair fəlsəfə, hüquq, sosial-siyasi sahələrdə mövcud olan bütün əsərlərdə hüquqların, məhz insanlara məxsus olduğu qeyd olunur. İnsanın insan hüquqlarının subyekti kimi müəyyən edilməsi iki məsələnin araşdırılmasını zəruri edir.

Birincisi, insan haqlarının subyekti kimi “insan” dedikdə, kimin nəzərdə tutulduğu məsələsi önəmlidir. İnsan hüquqları haqqında qəbul edilmiş bütün beynəlxalq sənədlərdə insan və insanlardan danışılır. Bu sənədlərin mətnlərindəki “insan” məfhumu fərdi nəzərdə tutur. Fərd dedikdə, kəmiyyətcə tək olan hüquq və azadlıqlara malik və hüquqlardan istifadə edən, azadlıqlardan bəhrələnən şəxs başa düşünülür. İnsanın fərd kimi qəbul edilməsi bəzi çətinliklərin dəf edilməsinə şərait yaradır.

Qeyd edək ki, fərd kontekstində insan haqlarının anlaşılması müasir dövrdə qərarlaşmış mövqedir. İlk zamanlar hüquq və azadlıqlarının subyektləri dedikdə, müxtəlif insan təbəqələri (sosial qruplar, kastalar, tarixi birliklər və s.) başa düşülür və məhdudiyyətlər müəyyən olunurdu. O dövrlərdə insan hüquqları müəyyən qrup insanlara şamil edilmiş, yalnız sonradan universallaşmışdır. Məsələn, Avropada ilk dəfə qəbul edilmiş 1215-ci il tarixli məşhur “Magna Carta Libertatum” (“Böyük Azadlıq Xartiyası”) Britaniya Krallığının fərqli silklərinə və təbəqələrinə ünvanlanaraq yazılmışdırsa, 1948-ci il tarixli “İnsan hüquqları haqqında ümumi Bəyannamə” bəşər nəslinin bütün üzvlərinə, hər bir insana xitabən yazılmışdır. Başqa sözlə, insan hüquqları kollektiv deyil, fərdi xarakter daşıyır və müxtəlif qruplara daxil olan konkret fərdlərin hüquqları kimi başa düşülür.

Fərdlər arasında iqtisadi bərabərliyin önəmini qeyd edən sosialist yönümlü tədqiqatçılar bu bərabərliyin pozulduğu təqdirdə, iqtisadi cəhətdən zəif olan fərdlərin güclü olan fərdlərə tabe olması ehtimalının reallığını göstərirlər. Bərabərlik elə bir səviyyədə təmin edilməlidir ki, fərd öz azadlıqlarını reallaşdıran zaman, bərabərsizlik səbəbindən, hər hansı maneedici elementlə üzləşməsin. Başqa sözlə desək, məhz bərabərlik azadlıqların həyata keçirilməsinə imkan yaratmış olsun. Bu nəticənin əldə olunması üçün azadlıq kimi bərabərlik də hüquqla qorunmalıdır. Həm azadlıq prinsipi, həm də bərabərlik prinsipi insan hüquqları çərçivəsində azadlıqların bərabər surətdə şamil olunmasını nəzərdə tutur.

İnsan hüquq və azadlıqları müasir mənasını alana qədər uzun və mürəkkəb proses yaşamışdır. İnsan hüquqları ideyası meydana çıxdıqdan bəri tarixin bütün zaman kəsiyində baş verən dəyişikliklərin, tənəzzül və tərəqqinin təsirinə məruz qalmışdır. Hər dövrün öz tələbi olduğu kimi, insan hüquq və azadlıqları da hər dövrün tələblərinə cavab vermək məcburiyyətində qalmışdır. Müxtəlif cəmiyyətlərdə ictimai inkişaf öz sürətinə, mürəkkəbliyinə, mütərəqqiliyinə görə fərqləndiyindən, bu cəmiyyətlərdəki hüquq və azadlıqlar da məzmun baxımından müxtəlif olmuşdur. Nəticə etibarilə insan hüquq və azadlıqları tarixi inkişafın bəşəriyyətə, ən zəngin töhfəsi olmuşdur. İnsan hüquq və azadlıqlarının mahiyyətini dərindən dərk etmək üçün tarixə, insan hüquqlarının keçdiyi yola nəzər salmaq lazımdır. İlk olaraq, qədim dövlətlərdə insan hüquq və azadlıqları haqqında ideyalara nəzər salaq.

Qədim Yunanıstanda insan hüquq və azadlıqları, demək olar ki, gündəlikdə olmamışdır. Burada insanlar bu dövlətin daxilində və bu dövlətin qanunlarına əsasən yaşayır, sanki insan hüquq və azadlıqlarına ehtiyacları olmadan davranır, bu hüquqların mövcudluğu ilə maraqlanmırlar. Buradakı ənənələr Qədim Şumer dövlətində mövcud olmuş ənənələrin davamı kimi inkişaf etmişdir. Bu səbəbdən də, yunanlar insanı ictimai həyatdan kənarda, müstəqil, hüquq və azadlıqlardan yararlanan yarlıq kimi təsəvvür etmirdilər.

İntibah dövrünü yaşamağa başlayan Avropa fəlsəfəsi ali varlıq olan insanı yenidən kəşf etməyə başlamışdır. Qərb dünyası islamın yayıldığı Şərqdə insana verilən önəmə, onun cəmiyyətdə yeri və roluna, inkişaf potensialına dair baxışları əhatə edən fəlsəfi düşüncələrdən bəhrələnmişdir. İbn-Rüşd (Averroes) vasitəsilə Aristotel, Platon kimi filosoflarla tanış olan Avropa mütəfəkkirləri kilsə sxolastikasına qarşı barışmaz və təsirli mübarizəyə başlamışlar.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## *Bizə can verən qan*

Dünyanın ən bahalı avtomobili də keyfiyyətsiz yanacaqla ya pis işləyir, ya da ümumiyyətlə işləmir. Orqanizm də belədir: əgər qan toksiki maddələrlə zəhərlənibsə və normal deyilsə, həyat fəaliyyəti pozulur. Qan orqanizmdə müxtəlif funksiyaları yerinə yetirən qırmızı rəngli mayedir. Ona qırmızı rəng verən tərkibi müxtəlif hüceyrələrdən ibarət dəmir birləşmələridir.

Qanın xüsusiyyətləri barədə Respublika Kliniki Uşaq Xəstəxanasının həkim-hematoloqu, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadə AZƏRTAC-a məlumat verib: “Nüvəsiz qan hüceyrələri olan eritrositlər stroma və yarımmaye kütlədə həll olmuş hemoqlobindən ibarətdir və onun əsas vəzifəsi qaz mübadiləsində iştirak etməkdir. Eritrositlər plastik olduğuna görə formasını dəyişərək uzanır və incə kapilyarlardan keçə bilir. Qanın qruplara ayrılması da eritrositlərlə əlaqədardır. Böyük fizioloji əhəmiyyətə malik leykositlər girdə rəngsiz nüvəli hüceyrələrdir. Onlar hərəkət edərək bakteriya, hüceyrə qırıntıları və yad cisimcikləri tutub fermentlər vasitəsilə əridir. Leykositlərin miqdarının artması leykositoz, azalması isə leykopeniya adlanır.

Çoxlu miqdarda granül ehtiva edən rəngsiz hüceyrə parçaları olan trombositlər, qanın laxtalanmasında əhəmiyyətli rol oynayır. Megakaryosit deyilən sümük iliyinin böyük hüceyrələrinin parçalarından meydana gələn trombositlər ortalama 10 günə qədər yaşayarlar. Ömrü dolan trombositlər dalaq və qaraciyərdəki xüsusi elementlər tərəfindən yox edilər. Trombositlərin tərkibində bioloji aktiv maddələr olan sitoplazmatik qranullar var.

Qan oksigeni ağciyərdən toxumalara və karbon qazını toxumalardan ağciyərə, qida maddələrini həzm orqanlarından toxumalara aparır, maddələr mübadiləsinin lazımsız məhsullarını, həmçinin artıq su, duz və turşunu toxumalardan çıxarır, orqanizmə düşən yad cisimlərə qarşı mübarizə aparır, laxtalanma qabiliyyəti sayəsində itkilərdən mühafizə edir.

Qan arteriya, vena və kapilyarlar vasitəsilə hərəkət edir. Həyəcan keçirərkən qanda böyrəküstü vəzin ifraz etdiyi adrenalin hormonu və onun nəticəsində ürək döyüntüləri artır. Qanın dövr etməsində kapilyar damarlarının böyük əhəmiyyəti var. Elm sübut edib ki, əsəb gərginliyi keçirəndə qan qatılaşır, sağlam həyat tərzi keçirəndə, zərərli vərdişlərdən-siqaret və alkoqoldan uzaq olanda qan da sağlam olur. Qanın orqanizmdə fəaliyyətinin tənzimlənməsi üçün müntəzəm olaraq təmiz havada gəzmək, idmanla məşğul olmaq, düzgün qidalanmaq, normal yuxu, təbiət qoynunda istirahət etmək lazımdır.

Təəssüf ki, bəzən bitkilərdən istifadə edərkən onların qana necə təsir göstərdiyi nəzərə alınmır. Məsələn, qatırquyruğdan istifadə zamanı qan qatılaşır, nanədən istifadə edəndə qan durulur. Ürək və böyrəklərin fəaliyyəti pozulanda, eləcə də qan damarlarında kirəcləşmə (ateroskleroz) olduqda təzyiq yüksəlir. Badamı şəkərlə birlikdə qəbul edəndə qan damarlarının kirəcləşməsinin qarşısı alınır”.

Həkim-hematoloq orqanizmdə qanın tərkibini yaxşılaşdırmaq üçün bir neçə reseptdən istifadə etməyi məsləhət görüb.

Hər birindən 100 qram olmaqla tozağacı tumurcuğu, dazıotu, solmazçiçək və çobanyastığı qarışdırılır, qarışıqdan bir xörək qaşığı 0,5 litrlik saxsı çaynikdə dəmlənilir, ağ təmiz parçadan süzülür, səhər yeməyindən yarım saat əvvəl və yatmazdan bir saat qabaq bir stəkana bir çay qaşığı bal qatılaraq içilir. Müalicə kursu 42-45 gün aparılır.

Yovşan suyundan balla şərbət hazırlanıb içilir. Qanın təmizlənərək saflaşması üçün bağ sarmaşığı suda qaynadılır və suyu stəkanla içilir. Qan təzyiqi aşağı olanda bir stəkan ayrana bir çay qaşığı duz qatılaraq qəbul edilir.

Qan təzyiqi yuxarı olanda sarımsaq əzilərək balla qarışdırılaraq məcun hazırlanır, çay qaşığı ilə qəbul edilir. Qan azlığı zamanı hər birindən eyni miqdarda tozağacı yarpağı və gicitkən qarışdırılır, qarışıqdan iki xörək qarışığı 300 ml qaynar suda dəmlənir, üç saat sonra süzülür. Gündə 3-4 dəfə yeməkdən yarım saat əvvəl qəbul edilir. Müalicə kursu 3-4 həftə davam etməlidir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Əkbərova Nərmin Mübariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nin İbtidai sinif müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Mustafazadə Aytən Samir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-in Filologiya fakültəsinin Fransız dili müəllimliyi ixtisasının IV kurs tələbəsi Əmrullayeva Səbinə Sahib qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.




## Komandamız Polo üzrə Avropa çempionatına böyük qələbə ilə başlayıb

Dünən İtaliyanın Siyene şəhərində start götürmüş Polo üzrə Avropa Çempionatının ilk oyununda Niderland komandası ilə qarşılaşan Azərbaycan yığma komandası rəqibini 7:3 hesabı ilə darmadağın edib. SİA-nın verdiyi məlumata görə, Avstriya, Almaniya, Fransa, Niderland, Slovakiya, İspaniya, İsveçrə, İrlandiya, İtaliya kimi təcrübəli komandalar ilə bərabər Avropa qitəsinin ən mötəbər polo yarışına ilk dəfə qatılmış yığmamızın tərkibində Əli Rzayev, Elçin Camallı, Fabian Bolanterio, Agustin Kronhaus daha çox fərqləniblər. Azərbaycan yığma komandasının baş məşqçisi Namiq Orucov turnirə böyük hesablı qələbə ilə başlayan komandamızın oyunundan razı qalmasını bildirib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi ali diqqət və qayğı nəticəsində ölkəmizdə polo idman növünün son illərdə xüsusilə böyük sürətlə inkişaf etməsini vurğulayan Namiq Orucov Niderland kimi təcrübəli rəqib üzərində qələbənin əldə olunmasında çempionata ideal hazırlaşma şəraitinin yaradılmasının ciddi əhəmiyyətini qeyd etmiş və buna görə Azərbaycan Respublikasının Atçılıq Federasiyasına minnətdarlığını ifadə edib.

Xatırladaq ki, Beynəlxalq Polo Federasiyası və İtaliyanın Atçılıq İdmanı Federasiyası tərəfindən birgə təşkil edilən Polo üzrə Avropa Çempionatı 30 sentyabr 2018-ci il tarixədək davam edəcəkdir. Yarış təqviminə uyğun olaraq Azərbaycan yığma komandası 22 sentyabr tarixində Fransa, 26 sentyabr tarixində Slovakiya, 28 sentyabr tarixində İrlandiya yığmaları ilə görüşə-cəkdir. Keçiriləcək 4 oyunun nəticəsinə əsasən ən çox xal toplayan komanda finalda digər qrupun qalibi ilə qarşılaşacaqdır.

## Ronaldo meydandan qovuldu, “Yuventus” qalib gəldi




Futbol üzrə Çempionlar Liqasında qrup mərhələsində ilk tura yekun vurulub.İkinci oyun günündə də 8 qarşılaşma keçirilib.

Günün maraqlı oyunlarından biri “Santyaqo Bernabeu”da olub. Son 3 mövsüm ÇL-i qazanan “Real” “Roma” ilə üz-üzə gəlib. Görüş Madrid klubunun qələbəsi ilə başa çatıb - 3:0.

Daha bir İspaniya - İtaliya qarşıdurmasında “Valensiya” “Yuventus”u sınağa çəkib. Kriştianu Ronaldo bu matçda “Qoca Sinyora”nın heyətində ÇL-də debüt edib. Lakin portuqaliyalı hücumçunun debütü uğurlu alınmayıb. O, matçın 29-cu dəqiqəsində qırmızı vərəqə alaraq meydandan qovulub. “Yuventus” azlıqda qalmasına baxmayaraq, 2:0 hesablı qələbə qazanıb.



## “Ronaldo ilə İbrahimoviçi “Roma”ya gətirmək istədim, pulumuz çatmadı”

“Həmişə deyirdim ki, uğur qazanmaq üçün komandaya çempionlar lazımdır” Qol.az-ın “Football İtalia” nəşrinə istinadən yaydığı xəbərə görə, bu sözləri “Roma”nın sabiq hücumçusu Frančesko Totti deyib. Hazırda klubun idman direktoru vəzifəsində çalışan veteran futbolçu “canavarlar”ın maliyyə məsələlərinə görə Ronaldo və İbrahimoviç kimi oyunçuları ala bilmədiyini söyləyib: “Ümid edirdim ki, Ronaldo, İbrahimoviç və onlar kimi dünyanın ən yaxşı futbolçuları “Roma”ya keçəcəklər. Təkcə hücumçular yox, müdafiəçi və yarımmüdafiəçiləri də nəzərdə tuturdum. Təəssüf ki, məhdudiyyətlər oldu. Klubun çempionları transfer etmək üçün kifayət qədər pulu olmadı. Həqiqətən inanılmaz insanları “Roma”ya dəvət etməyə çalışdım”. Qeyd edək ki, Totti 2017-ci ilin yayında futbolçu karyerasını başa vurub.

## “Fənərbaxça” - “Beşiktaş” derbisini Fırat Aydınus idarə edəcək



Futbol üzrə Türkiyə superliqasının 6-cı turunda keçiriləcək “Fənərbaxça” - “Beşiktaş” oyununun hakimləri müəyyənləşib. Qol.az-ın yerli mətbuata istinadən yaydığı xəbərə görə, İstanbul derbisini Fırat Aydınus idarə edəcək. Ona Serkan Ok və Aleks Taşçıoğlu köməklik edəcək. Dördüncü hakim funksiyasını Alper Ulusoy yerinə yetirəcək. Qeyd edək ki, “Fənərbaxça” - “Beşiktaş” görüşü sentyabrın 24-ü keçiriləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**